DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (330) / YANVAR 2019-CU İL

...Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Biz bir neçə strateji mövqeyi işğalçılardan azad etmişik və o bölgələrdə, o yüksəkliklərdə Azərbaycan bayrağını qaldırmışıq. Bu gün Lələtəpədə, Ağdərə dağlarında, Naxçıvan dağlarında - hansılar ki, işğal altında idi, bu gün Azərbaycanın dövlət bayrağı dalğalanır.

Eyni zamanda, bildiyiniz kimi, bu məsələni danışıqlar yolu ilə həll etməyə çalışırıq. Hesab edirəm ki, ölkəmizin artan potensialı, hərbi-iqtisadi gücü, dünyadakı mövqeyi bu gün bizim xeyrimizə işləyir və bu gün danışıqlar prosesində ölkəmizin mövqeləri kifayət qədər güclüdür.

...Cocuq Mərcanlı bizim əyilməz iradəmizin rəmzinə çevrilib. Cocuq Mərcanlının abadlaşdırılması, yenidən qurulması hərbi qələbə nəticəsində mümkün olmuşdur. Biz sübut etdik ki, döyüş meydanında da düşməndən üstünük. Biz ermənilərin, Ermənistan rəhbərliyinin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdik. Onlar sübut etməyə çalışırdılar ki, hərbi cəhətdən bizdən üstündürlər və buna görə də 1990-cı illərin əvvəllərində bizim torpaqlarımızı zəbt edə biliblər.

...Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan güclü dövlətdir, Azərbaycan əsgəri, zabiti qorxmaz zabit və əsgərdir, peşəkardır. Göstərdi ki, ölkəmizin güclü ordusu var və onu göstərdi ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayıb və barışmayacaq. Aprel döyüşlərindən iki il sonra uğurlu Naxçıvan əməliyyatı keçirildi. 2016-cı ilə nisbətən daha böyük, bir neçə dəfə böyük ərazi nəzarətimizə keçdi, işğalçılardan azad edildi. Bu gün biz Ermənistan ərazisindən keçən strateji yollara, kommunikasiyalara nəzarət edirik. Biz bundan sonra da öz hərbi gücümüzü artıracağıq. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz istəmirik ki, şəhidlər olsun, istəmirik ki, gənclərimiz şəhid olsun. Münaqişəni sülh yolu ilə həll etmək üçün həm siyasi, həm iqtisadi, həm hərbi güc olmalıdır. Bu gün üç amil var və ölkəmizi gələcəyə aparır.

**Prezident İlham Əliyev,**
*Prezident Sarayında şəhid ailələri ilə görüşdəki çıxışından*
28 yanvar 2019-cu il



## DÖVLƏT KOMİTƏSİNDƏ 2018-Cİ İLİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN KOLLEGİYA İCLASI OLUB



Səh. 2

## DÖVLƏT KOMİTƏSİNDƏ 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



Səh. 6

## AZƏRBAYCANDA TOLERANTLIQ MÜHİTİNİN QORUNUB SAXLANILMASI ÜÇÜN HÜQUQİ BAZA FORMALAŞDIRILIB



Səh. 8

## BAKIDA "SEYİD YƏHYA ŞİRVANİ BAKUVİ VƏ TƏSƏVVÜF ƏNƏNƏSİ" MÖVZUSUNDA TƏDBİR TƏŞKİL EDİLİB



Səh. 9

## UNUDULMAYAN TARİX – MÖVCUD TƏHDİDLƏR



Səh. 10

## SOSİAL ŞƏBƏKƏLƏR: RADİKALLARIN TƏLİM POLİQONU VƏ YA "YIXILMAMAQ" ÜÇÜN "QAÇMAĞI" ÖYRƏNMƏYİN VAXTIDIR



Səh. 12

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

**Hörmətli həmvətənlər!**

Sizi – Azərbaycanın bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müasir dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycan Respublikası yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi cəmiyyətə malikdir.

Tarixən müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində vahid ailə kimi yaşadığı Azərbaycanda pravoslavlıq say etibarilə ən böyük xristian konfessiyasıdır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan pravoslav xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində fəal iştirak edir, dinlərarası əməkdaşlıq və etimad mühitinin inkişafına öz layiqli töhfələrini verir. İnanıram ki, pravoslav xristian icması bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə əlindən gələni əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

**Bayramınız mübarək olsun!**

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 3 yanvar 2019-cu il.*

# DÖVLƏT KOMİTƏSİNDƏ 2018-Cİ İLİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN KOLLEGİYA İCLASI OLUB



Yanvarın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.

İclasda kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı giriş sözü ilə çıxış edərək Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasa toxunub. 2018-ci ilin ümumilikdə ölkəmiz üçün uğurlu olduğunu, bir çox sahələrdə nailiyyətlərin əldə edilidiyini bildirən DQİDK sədri ötən il ərzində ölkədə dini durumla bağlı sabitliyi təmin etmək və qoruyub-saxlamaq, həmçinin tolerant mühitin daha da sağlamlaşdırılması, mənfi təzahürlərin aradan qaldırılması üçün bir sıra əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. Bütün bu addımların ölkədəki dövlət-din münasibətlərinin təkmilləşməsi və möhkəmlənməsinə xidmət etdiyini bildirən Mübariz Qurbanlı xüsusilə ötən ilin dövlət-din münasibətlərinin tənzimlənməsi və din sahəsinə dövlət qayğısı baxımından əlamətdar olduğunu deyib. O, milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı və 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun ötən il tam şəkildə fəaliyyətə başladığını vurğulayıb.

Mübariz Qurbanlı bildirib ki, bu ilin dövlət başçısı tərəfindən Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq "Nəsimi İli" elan olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir. Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən "Nəsimi ili" çərçivəsində Tədbirlər Planı hazırlanır və bu plana əsasən müdrik filosofumuzun ideyalarının təbliğinə xüsusi diqqət yetiriləcək.

Dövlət Komitəsinin sədri daha sonra 2018-ci il ərzində respublikada dini durumu dərindən öyrənmək, dini prosesləri izləmək, əsas tendensiyaları müəyyənləşdirmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək məqsədilə həyata keçirilən müvafiq tədbirlər barədə ətraflı məlumat verib.

Dövlət Komitəsinin sədri 2018-ci ildə dövlət qeydiyyatına alınan dini icmaların ümumi sayının 909-a çatdığını, onlardan 877-nin İslam, 21-i xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru olmaqla 32-nin isə qeyri-İslam təmayüllü olduğunu vurğulayıb. Hesabat dövründə dini qurumların dövlət qeydiyyatına alınması ilə bağlı 143 müraciətin (138-i İslam, 5-i qeyri-İslam təmayüllü) daxil olduğu, 22 dini qurumun sənədlərinin qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarıldığı, ümumilikdə 98 dini icmanın (96-sı İslam, 2-si qeyri-İslam təmayüllü) dövlət qeydiyyatına alındığı diqqətə çatdırılıb.

DQİDK sədri bildirib ki, hesabat dövründə dini təyinatlı ədəbiyyatın ölkəyə idxalı, nəşri və yayılması sahəsindəki vəziyyətin öyrənilməsi, ölkədə dini duruma mənfi təsir göstərə biləcək zərərli dini təyinatlı ədəbiyyatın aşkarlanması istiqamətində işlər davam etdirilib. İdxalla bağlı 2018-ci il ərzində Dövlət Komitəsinə daxil olan müraciətlər əsasında 1704 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 52 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə təqdim edilmiş 192 adda dini ədəbiyyatdan 26-sının çapı məqsədəuyğun sayılmayıb. 741 adda (801 min 307 ədəd) dini təyinatlı ədəbiyyata yapışdırılması üçün nəzarət markaları verilib. Hüquq-mühafizə orqanları tərəfindən müsadirə olunaraq DQİDK-ya göndərilən 437 adda dini təyinatlı ədəbiyyat və məmulat materiallarından 38-nin zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edildiyi müəyyən edilib. O qeyd edib ki, ötən müddət ərzində hüquq-mühafizə orqanları ilə birgə qanunsuz dini fəaliyyətə, eləcə də ixtisaslaşmış satış məntəqələrindən kənarda dini ədəbiyyat nümunələrinin satışının həyata keçirilməsinə qarşı inzibati tədbirlər intensiv şəkildə davam etdirilib. İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq, 33 protokol tərtib edilib.

Hesabat dövründə DQİDK-nın dini maarifləndirmə istiqamətində həyata keçirdiyi tədbirlərdən danışan Komitə sədri 2018-ci ildə dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə respublikanın bütün bölgələrində tədbirlərin təşkil olunduğunu deyib. Ümumilikdə 600-ə yaxın tədbirin keçirildiyini deyən Mübariz Qurbanlı ölkənin şəhər və rayonlarında "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda 13 regional konfrans, "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda 21 seminar-müşavirə və "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda 20 seminar-treninqin təşkil olunduğunu diqqətə çatdırıb. Əlavə edib ki, müvafiq qurumlarla əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti ilə 10, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə 69, Müdafiə Nazirliyi ilə 10, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə 10, Dövlət Sərhəd Xidməti ilə 6, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə 33, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə 2, Təhsil Nazirliyi ilə 200-dən artıq birgə tədbir təşkil edilib.

Eyni zamanda, Dövlət Komitəsinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı" və "1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə dair Tədbirlər Planı" çərçivəsində gördüyü işlərə toxunan Mübariz Qurbanlı bu istiqamətdə 2 konfransın, müxtəlif formatlarda 24 tədbirin keçirildiyini, habelə "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" mövzusunda kitabın nəşr edildiyini bildirib.

davamı səh. 3

əvvəli səh. 2 DQİDK sədri Dövlət Komitəsinin bu tədbirləri həyata keçirərkən hüquq-mühafizə, yerli icra hakimiyyəti orqanları, digər aidiyyəti dövlət qurumları, habelə Heydər Əliyev Fondu, Qafqaz Müsəlmanları İdarəsi və başqa dini mərkəzlərlə yaxından əməkdaşlıq etdiyini deyib.

O, hesabat dövrü ərzində keçirilən bəzi maarifləndirici tədbirlərin formatına uyğun olaraq, Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Fitnə", "Şəhadət", "Üfüqdəki gələcək" və "Vəhdət qanımızdadır" adlı sənədli filmlərin ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirildiyini vurğulayıb. Maarifləndirmə sahəsində işlərin Dövlət Komitəsinin mətbu orqanı olan "Dövlət və Din" ictimai fikir toplusu və "Cəmiyyət və Din" qəzeti, həmçinin İTV kanalında yayımlanan "Cəmiyyət və Din", Space kanalında yayımlanan "İnam" verilişləri vasitəsi ilə də həyata keçirildiyini qeyd edib.

Komitə sədri, həmçinin Azərbaycanda tolerantlıq ənənələri, dözümlülük, dinc birgəyaşayış mədəniyyətimatların ümumi təhlilinə əsasən, ötən ildə ölkəmizdə Aşura mərasiminin ümumilikdə sabit keçdiyini, bəzi neqativ hallar istisna olmaqla ciddi pozuntuya yol verilmədiyini vurğulayıb.

Çıxışında eyni zamanda, respubikada dini təhsillə bağlı vəziyyətə toxunan şöbə müdiri dini təhsil müəssisələri ilə əməkdaşlığın qurulmasının təmin edilməsi, dini təhsillə əlaqəli proseslərin izlənilməsi, eləcə də müqəddəs kitabları öyrənmə kurslarının fəaliyyətinə nəzarətin həyata keçirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxışında bildirib ki, hesabat dövründə təmsil etdiyi Agentlik və onun tabeliyindəki Mənəvi Dəyərlər Fondu dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, radikal dini cərəyanlara qarşı müvafiq tədbirlərin görülməsi, cəmiyyətdə milli-mənəvi dəyərlərin təbliği istiqamətində fəaliyyətini davam etdirib. Qeyd edib ki, Agentliyin tabeliyində olan Fondun vəsaiti hesabına attestasiyadan keçən 202 din xadiminə maddi köməklik göstərilib. Ekspert rəyi verilFonda ayrılan vəsait hesabına ölkəmizdə mənəvi dəyərləri təbliğ edən şəxslər qismində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi olaraq təyinat alan 1060-dan çox imam, imam müavini və mütəvəllilərə maddi dəstək göstərilir. Dövlət başçısının digər müvafiq Sərəncamına əsasən isə dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması istiqamətində işlər görülüb. Mənəvi dəyərləri təbliğ etmək məqsədilə Fond tərəfindən Ramazan ayında Azərbaycanın bir sıra şəhər və rayonlarında şəhid ailələrinin üzvləri və müharibə veteranlarının iştirakı ilə 12 iftar süfrəsi təşkil edilib, Ramazan və Qurban bayramlarında 180-dən çox şəhid ailəsinə ərzaq yardımı edilib, eləcə də uşaq evlərində, cəbhə bölgəsində layihələr icra edilib.

M.İsmayılov 2018-ci ildə aktual mövzulara həsr edilən 11 konfrans, 16 seminar-treninq, 6 seminar-müşavirə, 7 regional seminar, eyni zamanda Fondun könüllüləri üçün Qax rayonunda Yay məktəbinin təşkil edildiyini bildirib. Əlavə edib ki, mənəvi dəyərlərin təbliği və dini etiqad sahəsində maarifləndirmə işinin gücləndirilməsi məqsədilə hesabat dövründə Fond tərəfindən 44





nin beynəlxalq aləmdə təbliği məqsədilə keçirilən beynəlxalq tədbirlər, səfərlər barədə də danışıb. Diqqətə çatdırıb ki, ölkəmizin tolerantlıq və multikultural dəyərlərinin, həqiqətlərinin ölkə xaricində təbliğ edilməsi məqsədilə Komitə əməkdaşları tərəfindən İsrail, ABŞ, Rusiya, Pakistan, Bolqarıstan və Misir Ərəb Respublikasının nüfuzlu və geniş auditoriyaya malik informasiya portallarında məqalələr dərc edilib.

Mübariz Qurbanlı məruzəsində Dövlət Komitəsinin rəsmi saytının yenidən yüksək keyfiyyətlə, dizayn baxımından peşəkar səviyyədə hazırlandığını, Azərbaycan, ingilis, rus dillərində xidmət göstərən elektron resursda vətəndaşlar üçün onlayn müraciət proqramı vasitəsilə birbaşa, asan müraciət imkanı yaradıldığını bildirib.

Daha sonra Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadənin məruzəsi dinlənilib. Ötən ildə Dövlət Komitəsi tərəfindən Məhərrəm ayı ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər barədə danışan şöbə müdiri vurğulayıb ki, 2018-ci ildə "Məhərrəmlik" mərasimlərinin Qafqaz Müsəlmanları İdarəsinin fətvasında irəli sürülmüş qaydalara uyğun keçirilməsi istiqamətində dini icmaların sədrləri, din xadimləri ilə müvafiq söhbətlər aparılıb. O, vətəndaşların dini etiqad azadlığının tam təmin olunması, mərasimlərin milli adət-ənənələrə uyğun şəkildə yüksək səviyyədə təşkil edilməsi və neqativ halların, xurafat və mövhumat elementlərinin qarşısının alınması istiqamətində profilaktik tədbirlər, xüsusilə maarifləndirmə işinin həyata keçirildiyini bildirib. Dövlət Komitəsi hər il olduğu kimi QMİ tərəfindən keçirilən qanvermə aksiyasına xüsusi dəstək verib. Dini icmalarda bununla bağlı təşviqat və təbliğat işləri ötən il də davam etdirilib. Şöbə müdiri 2018-ci ildə 11-i Bakı şəhərində, 17-si isə respublikanın böyük şəhər və rayonlarında olmaqla 28 ünvanda qanvermə aksiyasının keçirildiyini diqqətə çatdırıb. C.Əlifzadə Dövlət Komitəsi tərəfindən şəhər və rayonlarında aparılan monitorinqlərin, daxil olan məluması məqsədilə müvafiq orqanlardan Agentliyə daxil olan 976 adda 1435 ədəd dini təyinatlı ədəbiyyatdan məzhəb ayrı-seçkiliyini özündə əks etdirən 336 adda ədəbiyyatın yayılmasının qarşısı alınıb. Agentlik Qazı yanında Şura ilə birlikdə din xadimlərinin biliklərinin artırılması üçün təkmilləşdirmə kursları təşkil edib. İl ərzində yerli KİV-də 26 dini maarifləndirici veriliş hazırlanıb, məqalələr dərc edilib, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı Tədbirlər Planına əsasən müxtəlif tədbirlər həyata keçirilib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov isə İnstitutun 2018-ci ildə təhsil standartlarının müəyyənləşdirilməsi, strukturunun təşkili, tələbə qəbulu, ilk tədris ilinə hazırlıq, eləcə də maarifləndirmə istiqamətində apardığı ardıcıl və məqsədyönlü işlər barədə məlumat verib. Diqqətə çatdırıb ki, İnstitutda bir fakültə və üç kafedra formalaşdırılıb. 2018-2019-cu tədris ili üzrə ilk tələbə qəbulu Dövlət İmtahan Mərkəzinin xətti ilə ödənişsiz əsaslarla III ixtisas qrupu üzrə iki istiqamət - İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə həyata keçirilib. Hazırda İnstitutda bakalavriat səviyyəsində 101, magistratura səviyyəsində isə 7 tələbə təhsil alır. İnstitut maarifləndirmə istiqamətində müxtəlif mövzularda 93 elmi seminar, görüş, dəyirmi masa təşkil edib. Həmçinin fəaliyyətini inkişaf etdirmək məqsədilə xarici təhsil müəssisələri ilə əlaqələr yaradıb. Rektor tədris ilinin başlanğıcında bütün fənlər üzrə lazım olan dərsliklərin hazırlanaraq tələbələrə paylanıldığını qeyd edib. İnstitutda elmi məqalələrin nəşri üçün nəzərdə tutulan "Din araşdırmaları" jurnalının və "İlahiyyatçı" qəzetinin nəşrə başladığını vurğulayıb.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fond tərəfindən mənəvi dəyərlərin qorunması, inkişafı və təbliğini həyata keçirmək məqsədilə reallaşdırılan tədbirlər barədə danışıb. Vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin 27 mart 2018-ci il tarixli Sərəncamı ilə adda ədəbiyyat nəşr edilib. Kütləvi informasiya vasitələrində mənəvi dəyərlərin təbliği işini həyata keçirmək məqsədilə isə ASAN Radio ilə birgə "Mənəvi dəyərlər" adlı radio veriliş hazırlanaraq təqdim edilir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək bildirib ki, Azərbaycanda din sahəsində stabil mühit mövcuddur, ölkəmiz konfessiyalar və məzhəblərarası münasibətlərin tənzimlənməsi baxımından nümunəvidir. O qeyd edib ki, ölkə başçısı İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün daim geniş imkanların yaradılması dövlətin milli-mənəvi dəyərlərə olan yüksək münasibətinin bariz nümunəsidir.

E.Nəcəfov ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması və dini icmalar arasında mövcud tolerantlıq mühitinə kölgə salmağa çalışan mənfi təzahürlərin aradan qaldırılması istiqamətində Dövlət Komitəsi tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifləndirmə tədbirlərini yüksək qiymətləndirib və bu tədbirlərin ölkədəki dövlət-din münasibətlərinin daha da təkmilləşməsinə öz töhfəsini verdiyini bildirib. O, ötən ildən başlayaraq təmsil etdiyi şöbənin respublikanın bütün bölgələrində etno-siyasi və dini durumla bağlı keçirdiyi zona müşavirələrinin dini radikalizmə qarşı mübarizə işinə öz müsbət təsirini göstərdiyini bildirib. Şöbə müdiri eyni zamanda, ölkədə sabitliyin qorunması və baş verə biləcək mənfi halların qarşısının alınması istiqamətində dini radikalizmə qarşı mübarizə, dini maarifləndirmənin genişləndirilməsi, dini-mənəvi dəyərlərin qorunması və inkişafı məqsədilə təbliğatın gücləndirilməsi, dini icmaların fəaliyyətinin dəstəklənməsi, eləcə də bölgədə şöbələrin fəaliyyətinin genişləndirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürüb.

Sonda Dövlət Komitəsinin 2019-cu il üçün fəaliyyət planı, qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# Mübariz Qurbanlı: "Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasəti ölkəmizə bundan sonra da böyük nailiyyətlər qazandıracaq"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlının yap.org.az saytına müsahibəsi.

**- Mübariz müəllim, 2018-ci il Azərbaycan üçün mühüm uğurlar və əlamətdar hadisələrlə yadda qaldı. Ötən ilin yekunlarını necə xarakterizə etmək olar?**

- Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan 2018-ci ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etdi, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmləndi. Ötən ilin ən mühüm-əlamətdar hadisəsi prezident seçkilərinin keçirilməsi və cənab İlham Əliyevin növbəti dəfə möhtəşəm qələbə qazanması oldu. Azərbaycan xalqı növbəti dəfə cənab İlham Əliyevə yüksək etimad göstərdi və bir daha sabitliyə, inkişafa səs vermiş oldu. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yolla irəliləyir. Bunun ən başlıca səbəbi Azərbaycanda həyata keçirilən siyasətin xalqın mənafeyini tam ifadə etməsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün bərpa olunması istiqamətində qətiyyətli siyasət davam etdirilir. 2016-cı ildə aprel döyüşləri Azərbaycanın prinsipial mövqeyindən bir addım da geri çəkilməyəcəyini, öz ərazi bütövlüyünü bərpa etmək əzmində və gücündə olduğunu, düşmən üzərində hərbi, siyasi, iqtisadi və mənəvi-psixoloji üstünlüyünü bir daha sübuta yetirdi. Həmçinin bu reallıqlar Ermənistanda hərbi-xunta rejiminin çöküşündə mühüm rol oynadı. Azərbaycan Ermənistanı regionda təcrid vəziyyətə salıb, bunun nəticəsində işğalçı ölkə iqtisadi və siyasi böhrana sürüklənib.

Ümumiyyətlə, müstəqilliyinin 28-ci ilinə qədəm qoyan Azərbaycan bu müddət ərzində çox mühüm nailiyyətlərə imza atıb. Azərbaycan bu gün həm regionda, həm də beynəlxalq müstəvidə öz yeri, rolu və xüsusi çəkisi olan ölkədir. Respublikamızın beynəlxalq təşkilatlarda da nüfuzu çox yüksəkdir, Azərbaycan bu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edəcək, bu, ölkəmizin çox mühüm diplomatik nailiyyətidir. Azərbaycanın beynəlxalq müstəvidə əməkdaşlıq və təhlükəsizliyi verdiyi fundamental töhfələrdən bəhs edərkən ölkəmizin iqtisadi baxımdan bölgədə həlledici rola malik olduğunu xüsusi vurğulamaq lazımdır. Bunun əyani ifadəsi kimi ölkəmizin təşəbbüsü və liderliyi ilə reallaşdırılan qlobal xarakterli layihələrin nəticələrini göstərmək olar.

Azərbaycan müsəlman aləmində çox böyük hörmətə, nüfuza malikdir. Ölkəmiz İslam həmrəyliyinə müstəsna töhfələr verir. 2018-ci ildə də Azərbaycan bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyətini uğurla davam etdirib. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdi ki, bizim İslam həmrəyliyi ilə bağlı atdığımız addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilir və bu sahədə verdiyimiz töhfə çox təsirlidir. "Yəni bizim apardığımız siyasət İslam aləmində həmrəyliyi, əməkdaşlığı möhkəmləndirir. Həm ölkə daxilində, həm xaricdə bu istiqamətdə keçirdiyimiz tədbirlər İslam birliyini daha da möhkəmləndirir" - deyə, dövlətimizin başçısı vurğulayıb.

2018-ci ildə Prezident İlham Əliyevin sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu siyasət nəticəsində əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Cənab Prezidentin apardığı bu siyasət bir daha sübut edir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımından aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması bu sahəyə Azərbaycan Prezidentinin qayğısını bir daha təsdiq edir. Bütün bunlar göstərir ki, güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətə davamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənib, yeni istehsal sahələri yaradılıb, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlib, ixrac qabiliyyəti artıb. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir.

Bütövlükdə, 2018-ci il Azərbaycan üçün çox mühüm nailiyyətlərlə yadda qaldı. Prezident İlham Əliyev yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 2018-ci ilin ölkəmiz üçün uğurlu il olduğunu, dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycanın uğurla, sürətlə inkişaf etdiyini, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrin icra olunduğunu, ölkəmizin hərtərəfli dinamik inkişafının təmin edildiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedəcək. Əlbəttə, bütün bu nailiyyətlər qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə imkanlar yaradır. Azərbaycan Prezidenti İlham Əliyevin inkişaf və quruculuq siyasəti ölkəmizə bundan sonra da böyük nailiyyətlər qazandıracaq.

**- Yeni Azərbaycan Partiyasının 2018-ci ildə fəaliyyəti nə ilə yadda qaldı?**

- Azərbaycan Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dinamik inkişaf edir, mütəmadi olaraq çox mühüm nailiyyətlər əldə edir. Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası da Azərbaycanın inkişafına öz layiqli töhfəsini verir. Ümumiyyətlə, YAP öz fəaliyyətini Heydər Əliyev ideyaları əsasında davam etdirir, Heydər Əliyev yolu ilə irəliləyir. Prezidentin siyasətinin həyata keçirilməsi və təbliğində aparıcı - avanqard rol Yeni Azərbaycan Partiyasına məxsusdur.

2018-ci ilin ən mühüm və əlamətdar hadisələrindən biri Yeni Azərbaycan Partiyasının VI Qurultayının keçirilməsi oldu. Qurultay Prezident İlham Əliyevin şəxsində Azərbaycanın inkişaf perspektivlərinə etibarlı təminatı nəzərə alaraq cənab İlham Əliyevin prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə qərar qəbul etdi. Aprelin 11-də keçirilən seçkilərdə isə partiyamızın Sədri cənab İlham Əliyev növbəti dəfə möhtəşəm qələbə qazandı. YAP-ın seçki təcrübəsini və xalq tərəfindən dəstəklənməsini nəzərə alaraq qeyd edə bilərik ki, Yeni Azərbaycan Partiyası bu il keçiriləcək bələdiyyə seçkilərində də yüksək nəticələr əldə edəcək.

YAP zamanın sınaqlarından uğurla çıxmış və əhəmiyyətli nailiyyətlərə imza atmış ümumxalq partiyasıdır. Yeni Azərbaycan Partiyasının qarşısında duran hədəflər milli maraqlara əsaslanan və dövlətin qarşısında duran hədəflərdir, partiyanın hər bir üzvü bu hədəflərin reallaşması üçün çalışır. Cənubi Qafqazın ən böyük və mütəşəkkil siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələri də yüksələn xətt üzrə inkişaf edir. YAP 51 ölkənin siyasi partiyalarının təmsil olunduğu "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı" təşkilatının (İCAPP) Daimi Komitəsinin üzvüdür, partiyamızın Avropanın bir sıra nüfuzlu siyasi partiyaları ilə geniş əlaqələri mövcuddur.

YAP-ın üzvləri müxtəlif sahələrdə-elm, təhsil, mədəniyyət və digər sahələrdə, dövlət idarəçiliyində uğurla təmsil olunurlar, o cümlədən beynəlxalq müstəvidə ölkəmizi müvəffəqiyyətlə təmsil edirlər. YAP gəncləri bu gün sosial şəbəkələrdə Azərbaycanın milli maraqlarının qorunmasında ardıcıl və səmərəli fəaliyyət göstərirlər. Məlumdur ki, Azərbaycanın qazandığı uğurlar bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Onlar ölkəmizin müsbət beynəlxalq imicinin və uğurlarının üzərinə kölgə salmağa çalışırlar. Bu məqsədlə ayrı-ayrı media orqanlarında və sosial şəbəkələrdə Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Əlbəttə bu cəhdlər əbəsdir. Azərbaycan müstəqil, milli maraqlar əsaslanan siyasət yeridir və ölkəmizin müstəqil siyasətinə, inkişaf yolunda irəliləməsinə təsir etmək mümkün deyil.

**- Yeri gəlmişkən, son zamanlar sosial şəbəkələrdə antiazərbaycan dairələr və "beşinci kolon" tərəfindən ölkəmizə qarşı qarayaxma kampaniyasının aparılması ilə bağlı nə deyə bilərsiniz?**

- Ölkəmizdə uğursuzluğa düçar olmuş və milli maraqlara zidd hərəkətləri ilə özlərini ifşa etmiş bəzi adamlar xaricə üz tutaraq Azərbaycan əleyhinə qarayaxma kampaniyasında iştirak edir, sosial media vasitəsilə həqiqətlərə uyğun olmayan, uydurma, böhtan xarakterli məlumatlar yayırlar. Əlbəttə Azərbaycan cəmiyyəti belələrini dəstəkləmir, onların öz uğursuzluqlarını ört-basdır etmək üçün yalan məlumatlar dövriyyəyə buraxdıqlarını, antimilli çağırışlar səsləndirdiklərini bilir. Ümumiyyətlə, bu cür cəhdlər faydasız və nəticəsizdir, iflasa məhkumdur, çünki Azərbaycanda xalq-iqtidar birliyi mövcuddur, ölkəmizdə sabitlik və inkişaf hökm sürür. Azərbaycan xalqı reallıqları görür və yüksək qiymətləndirir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçərək regionun lider dövlətinə çevrilib, paytaxt Bakının və regionların siması əhəmiyyətli dərəcədə dəyişilib, əhalinin sosial müdafiəsi daha da gücləndirilib və bütün bunlar Azərbaycanın qüdrətinin artmasını təmin edib. Bütün bu reallıqları görən hər bir vətəndaş Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti yüksək qiymətləndirir, bu siyasətin Azərbaycanın gələcək inkişafının əsası olduğunu anlayır və dövlətimizin başçısına, onun siyasətinə böyük inamını ifadə edir. Ona görə də Azərbaycan əleyhinə qarayaxma kampaniyası aparanlar, o cümlədən sosial şəbəkələrdə yalan məlumatlar yayanların "fəaliyyət"i xalq tərəfindən ciddi narazılıqla qarşılanır. Ədliyyə Nazirliyi yanında İctimai Komitənin üzvlərinin həbsdə olan blogger Mehman Hüseynovla görüşməsi məhz "beşinci kolon" nümayəndələri tərəfindən səsləndirilən iddiaların yalan və böhtan xarakterli məlumatlardan ibarət olduğunu bir daha sübuta yetirdi.

**- Mübariz müəllim, Azərbaycanda dini durum yüksək qiymətləndirilir, dövlət-din münasibətləri mütərəqqi nümunə kimi dəyərləndirilir. Ölkəmiz dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınır. Bu barədə fikirləriniz nədən ibarətdir?**

- Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin dövlət-din

davamı səh. 5

əvvəli səh. 4

münasibətləri sahəsində qoyduğu bu nümunəvi siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Dövlətimizin başçısının sərəncamları ilə son illər tarixi dini abidələr, ziyarətgahlar bərpa edilir, milli-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlər keçirilir. Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu diqqət və qayğının parlaq nümunəsidir.

Azərbaycanda din-dövlət münasibətləri nümunəvi xarakter daşıyır, tolerantlıq və multikultural mühit hökm sürür. Son hesablamalara görə, ölkə ərazisində 2250 məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı var. 2018-ci ildə dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, onların ümumi sayı 909-a çatıb. Onlardan 877-i İslam, 32-i qeyri-İslam təmayüllüdür. Sonunculardan 21-i xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.

Biz ötən il də Prezident İlham Əliyevin siyasətində tolerant və multikultural dəyərlərin əhəmiyyətli yer tutduğuna bir daha şahid olduq. Ölkə rəhbərliyinin dəstəyi ilə 2018-ci ildə də müxtəlif xarici ölkələrdə Azərbaycanın multikultural dəyərlərinin təbliği və təşviqi ilə əlaqədar beynəlxalq konfranslar keçirilib ki, bu tədbirlər coğrafi olaraq çox geniş ərazini əhatə edib. İspaniya, Avropanın müxtəlif ölkələri, Almaniya və başqa ölkələrdə təşkil edilən tədbirlərdə Azərbaycanın multikultural dəyərləri ətraflı şəkildə insanlara çatdırılıb. Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi ilə reallaşan beynəlxalq tədbirlər insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verib. Ölkə rəhbərinin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verir və verməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. Dövlət başçımız İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Ölkəmizdə mövcud olan digər dinlərin nümayəndələri də dövlət başçımızın diqqət və qayğısından kənarda qalmırlar. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Azərbaycan dünyada öz mədəniyyəti, tarixi, adət-ənənələri ilə fəxr etməyə layiq olan az sayda dövlətlərdən biridir. Tolerantlığın dövlət siyasətinə çevrilməsinin əsasını Ümummilli Lider Heydər Əliyev qoymuşdur və bu zəngin ənənə hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox böyük diqqət və qayğı göstərir.

Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Bu gün öz nümunəvi dəyərlərini bütün dünyaya təqdim edən Azərbaycan əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən istifadə edərək artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilib. Son illər həm lokal, həm də qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması tamamilə məntiqəuyğundur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun gördüyü işlər – ibadət evlərinin təmiri və yenidən qurulması, Azərbaycanın tolerant və multikultural dəyərlərinin dünyaya çatdırılması istiqamətində həyata keçirilən tədbirlər müstəsna əhəmiyyətə malikdir.

**- Dini maarifləndirmə istiqamətində hansı tədbirlər həyata keçirilir?**

- Təcrübə göstərir ki, bu gün dini sahədə ortaya çıxan əksər problemlərin kökündə dini savadsızlıq, İslamın olduğu kimi təqdim edilməməsi dayanır. Məhz bu səbəbdən Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinə xüsusi önəm verir. Çünki dini maarifləndirmə düzgün aparıldığı zaman dini təhlükəsizlik və ictimai-siyasi sabitlik təmin olunur, tolerantlıq ənənələrinin inkişafına təkan verilir, dini zəmindəki ziddiyyətlərin, dövlətlər və xalqlar arasındakı qarşıdurmaların qarşısı alınır.

Maarifləndirmə işi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Dövlət Komitəsi ölkədə dövlət-din münasibətlərinin, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini radikalizm meyillərinin qarşısının alınması, o cümlədən milli-mənəvi dəyərlərimizin, ölkədəki zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işi aparır. Bu məqsədlə komitənin "Dövlət və Din" ictimai fikir toplusu və "Cəmiyyət və Din" qəzeti nəşr olunur; dini radikalizm, ekstremizm, fanatizm və xurafat meyillərinin qarşısını almaq, eyni zamanda milli-mənəvi dəyərləri təbliğ etmək məqsədilə kitab, broşür və digər çap məhsulları hazırlanır; İctimai TV-də hər həftə "Din və Cəmiyyət" verilişi, Space TV-də "İnam" verilişi efirə gedir; ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktual olan mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil edilir. Eyni zamanda, keçirilən əksər tədbirlərdə Dövlət Komitəsinin sifarişi ilə ərsəyə gəlmiş, dini radikalizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə", Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət", İslam dininin sülhsevərliyindən, tolerantlığından bəhs edən "Üfüqdəki gələcək" və ötən ilin sonunda ictimaiyyətə təqdim olunmuş Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olmuş birlik və bərabərlik, xalqımızın tolerantlıq keyfiyyətləri işıqlandırılmış "Vəhdət qanımızdadır" sənədli filmləri nümayiş olunur. Ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirilən filmlər ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

2018-ci ildə Dövlət Komitəsi ayrıca və digər qurumlarla birgə ümumilikdə 600-ə yaxın tədbir həyata keçirmişdir. 50 mindən artıq insanın iştirak etdiyi bu tədbirlərdə rayon icra hakimiyyətləri, təhsil müəssisələri, Azərbaycan Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, rayonlarda yerləşən Heydər Əliyev Mərkəzləri, Yeni Azərbaycan Partiyası (YAP) və YAP-ın Gənclər Birliyi, eləcə də Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları və silahlı qüvvələri ilə yaxından əməkdaşlıq edilmişdir.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı yanvarın 14-də Səudiyyə Ərəbistanı Krallığının Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyr ilə görüşüb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonağı ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, DQİDK-nın fəaliyyəti barədə məlumatlandırıb. Bildirib ki, Azərbaycanda dini sahəyə daim diqqət və xüsusi qayğı göstərilir. Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin, eyni zamanda xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə yönəlib.

Azərbaycanın sürətli inkişafına şahid olduğunu diqqətə çatdıran səfir Haməd bin Abdullah bin Səud bin Xudeyr ölkəmizdə dinlərarası münasibətlərin yüksək səviyyədə olmasından, nümunəvi tolerantlıq və multikulturalizm mühiti sərgiləməsindən məmnunluğunu ifadə edib. Diplomat ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini qeyd edib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı yanvarın 25-də Kanadanın iqamətgahı Ankarada yerləşməklə Azərbaycan Respublikasında akkreditə edilmiş səfirliyinin siyasi məsələlər üzrə ikinci katibi Antoniya Uin-Haqs ilə görüşüb.

Azərbaycan və Kanada arasında ikitərəfli əlaqələrin inkişaf dinamikasını məmnuniyyətlə qeyd edən Dövlət Komitəsinin sədri qonağa DQİDK-nın fəaliyyət istiqamətləri, ölkəmizdəki dövlət-din münasibətlərinin tənzimlənməsi, dini dözümlülük mühiti barədə məlumat verib. Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin uğurlu siyasətinin davamı olaraq Prezident İlham Əliyevin tolerantlıq və multikulturalizm sahəsində həyata keçirdiyi ardıcıl siyasətə diqqət çəkib. O, tolerantlığın, dinlərarası dialoqun həyata keçirilməsinə böyük əhəmiyyət verilən Azərbaycanda dövlətin dinə qayğısından söz açıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan Komitə sədri işğal altındakı torpaqlarımızda maddi-mənəvi irsimizin məhv edildiyini qeyd edib.

Antoniya Uin-Haqs ölkəmizin tolerantlıq ənənələrinin təbliğ və təşviqinə görə müsbət mənada fərqləndiyini vurğulayıb. Diplomat Azərbaycanın dinlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində gördüyü işləri yüksək dəyərləndirib.



# DÖVLƏT KOMİTƏSİNDƏ 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



Yanvarın 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 20 Yanvar - Ümumxalq Hüzn Gününə həsr edilmiş tədbir keçirilib.

Tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, 20 Yanvar hadisələri nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Xalqımız tərəfindən qəhrəmanlıq salnaməsi kimi qəbul olunan Yanvar şəhidlərinin dəfn olunması ilə əlaqədar Bakıda keçirilən izdihamlı matəm mitinqində bir milyon nəfərdən yuxarı insanın iştirak etməsi Azərbaycan xalqının müstəqillik uğrundakı birliyini və gücünü bütün dünyaya göstərdi.

Mübariz Qurbanlı vurğulayıb ki, faciədən sonra Ulu Öndər Heydər Əliyevin dərhal Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, təsəlli olmaqla onun mübarizə əzmini yüksəltdi. Məhz Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilib, bu faciəni törədənlər bəyan olunub, müvafiq cinayət işi qaldırılıb.

O, həmin çətin zamanda Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülİslam Allahşükür Paşazadənin təhdid və təzyiqlərə baxmayaraq bütün dövlətlərin və dinlərin başçılarına göndərdiyi müraciətləri xatırladıb.

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin də təməl prinsiplərindən birinin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması olduğunu deyən Mübariz Qurbanlı diqqətə çatdırıb ki, 20 Yanvar şəhidləri ölkəmizlə yanaşı xarici ölkələrdə də anılır. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinə diqqət və qayğı daim diqqət mərkəzindədir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi olan 20 Yanvarın tarixi barədə danışıb. 1990-ci il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet dövlətinin görünməmiş qəddarlıqla keçirilən cəza tədbirlərinə imza atdığını qeyd edib. Ölkəmizə qarşı məkrli niyyətin tərkib hissəsi olan bu vəhşi terror aktının insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu deyib. 20 Yanvar faciəsi törədilən zaman ölkədə informasiya blokadası yarandığını bildirən S.Heydərov burada əsas məqsədin xalqı bu dəhşətli faciədən xəbərsiz qoymağın olduğunu deyib. Bütün varlığı ilə Vətəninə və millətinə bağlı olan böyük vətənpərvər Heydər Əliyevin bütün maneələrə baxmayaraq xalqının səsinə birinci səs verdiyini vurğulayan S.Heydərov qeyd edib ki, dahi şəxsiyyətin ailə üzvləri ilə birlikdə imperiyanın mərkəzindəki çıxışı bütün dünyanın diqqətini Azərbaycana yönəltdi, xalqda müstəqilliyə inam oyatdı. Sədr müavini bildirib ki, bu hadisə həm də xalqımızın milli-azadlıq ruhu və məfkurəsinin oyanış günü oldu. O, tarixin müxtəlif dövrlərində bu cür faciələrlə üz-üzə qalan xalqımızın sınaqlardan uğurla çıxdığını və bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın bugünkü hərtərəfli uğur qazandığını, dünyada tolerantlıq nümunəsi sərgilədiyini diqqətə çatdırıb.

Qafqaz Müsəlmanlari İdarəsinin sədr müavini Fuad Nurullayev 20 Yanvar günü baş verənlərlə bağlı xatirələrini bölüşüb, xalqın öz suverenliyi və azadlığı uğrunda mübarizə apardığını vurğulayıb. Azərbaycanda tarixən müxtəlif millətlərin nümayəndələrinin qardaşlıq, dostluq şəraitində yaşadığını və istənilən hadisədə vəhdət halında olduğunu deyən F.Nurullayev bu baxımdan 1990-cı il 20 yanvar hadisələrinin də istisna olmadığını qeyd edib. O qanlı faciədə də dinindən asılı olmayaraq hər kəs Azərbaycanın azadlığı, müstəqilliyi uğunda canını sipər edib.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili çıxışlarında bildiriblər ki, 20 Yanvar şəhidlərinin xatirəsi daim əziz tutalacaq, onların fədakarlıqları xalqımızın yaddaşından heç zaman silinməyəcək.

# "OXU!" SƏNƏDLİ FİLMİNİN TƏQDİMATI OLUB





Yanvarın 11-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin inzibati binasında xurafatla mübarizəyə həsr olunan “Oxu!” adlı sənədli filmin təqdimatı olub.

Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə “Sağlam Gəncliyə Doğru” İctimai Birliyi tərəfindən hazırlanan “Oxu!” sənədli filminin rejissoru və ssenari müəllifi Orxan Fikrətoğludur.

Filmin nümayişindən sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı bildirib ki, bu gün bir sıra ölkələrdə dinlərarası, məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respublikamızın tarixi ənənələri müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşamasına imkan verir. Azərbaycanın dünya üçün tolerantlıq nümunəsi olduğunu qeyd edən Komitə sədri bildirib ki, bu gün dünya dövlətləri ölkəmizin multikulturalizm və tolerantlıq modelinə böyük maraq göstərir. Dövlətimiz bütün dini konfessiyalar üçün bərabər münasibət mühiti yaradır.

Dünyada dini zəmində, eləcə də məzhəblərarası ədavətin qızışdırılması yolu ilə münaqişə ocaqlarının yaradıldığını deyən M.Qurbanlı bildirib ki, Prezident İlham Əliyev Azərbaycanda 2016-cı ili “Multikulturalizm İli”, 2017-ci ili isə “İslam Həmrəyliyi İli” elan etməsi ilə bütün dünyaya birlik və həmrəylik mesajı verdi.

Dini radikalizm və xurafat kimi təhdidlərin mövcud olduğunu bildirən Mübariz Qurbanlı qeyd edib ki, Dövlət Komitəsi tərəfindən dini mühitdə cərəyan edən bu kimi mənfi tendensiyaların qarşısının alınması, eləcə də dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə silsilə maarifləndirici tədbirlər həyata keçirilir. O, Dövlət Komitəsinin sifarişi əsasında ötən illər ərzində dini radikal, ekstremist qrupların törətdiyi fəsadları və təhlükələri ictimaiyyətə daha geniş şəkildə çatdırmaq üçün “Fitnə”, “Şəhadət”, “Vəhdət qanımızdadır”, “Üfüqdəki gələcək” adlı sənədli filmlərin çəkildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, “Oxu!” filmi isə xurafatla mübarizəyə həsr olunub, məhz gəncləri xurafat kimi bəladan uzaq tutmaq üçün hazırlanıb. Sənədli filmdə cəhalətin, elmsizliyin yol açdığı mənəvi boşluqlar və bunun nəticəsində xurafat hallarının artmasının yaratdığı təhlükələrdən söhbət açılır.

Dövlət Komitəsinin sədri bildirib ki, son dövrdə dini radikal qruplar ayrı-ayrı ölkələrdə ictimai-siyasi sabitliyi pozmağa, qarşıdurma yaratmağa cəhdlər edirlər. Bəzi ölkələrdə hətta buna nail olublar. “Bunu Suriyanın, İraqın, Əfqanıstanın və digər ölkələrin timsalında görmək olar. Radikal dini qruplar olduqca təhlükəlidir. Ona görə də buna qarşı ciddi qabaqlayıcı tədbirlər görülməlidir. Ölkədə bununla əlaqədar müvafiq dövlət orqanları lazımi addımlar atırlar", - deyə Mübariz Qurbanlı qeyd edib.

Komitə sədri əlavə edib ki, bu il Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən bir neçə layihə həyata keçiriləcək. Bunlara kiçik həcmli videoçarxların, sənədli filmlərin hazırlanması da daxildir.

Tədbirdə “Oxu!” sənədli filminin rejissor və ssenari müəllifi Orxan Fikrətoğlu, DQİDK-nın sədr müavini Gündüz İsmayılov və YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək filmin əhəmiyyətindən danışıb, gəncləri İslam dininin dəyərlərini dərindən mənimsəməyə, dini xurafata və radikalizmə qarşı ideoloji mübarizədə fəal olmağa çağırıblar.

Sonra filmlə bağlı gənclərin sualları cavablandırılıb və müzakirələr aparılıb.

# GƏNCLƏR DİNİ DÖZÜMLÜLÜK VƏ TOLERANTLIQ RUHUNDA TƏRBİYƏ OLUNMALIDIR



Ислам в СНГ

RSS Контак

Главная Темы Альманах Фото О нас

**Уникальная «модель мультикультурализма и толерантности» Ильхама Алиева**

11.01.2019 | Мнения и комментарии

***Опыт Азербайджана в этой области в глобальном масштабе рассматривается как совершенный пример***

Проводимые в Азербайджане в последние годы социально-экономические реформы, успехи, достигнутые под руководством президента Ильхама Алиева как в регионе, так и на международном уровне, оказывают положительное влияние на религию, которая напрямую связана с общественно-политической и социальной жизнью. Используя возможности, предусмотренные Конституцией и Законом «О свободе вероисповедания», сегодня каждый гражданин Азербайджана полностью претворяет в жизнь свободу вероисповедания.

Между действующими в стране конфессиями не наблюдается никакой конфронтации, напротив, отношения между ними уже от совместного сотрудничества перешли на новый уровень – уровень взаимопомощи и эмпатии. Подтверждением этому служит тот факт, что при сооружении молитвенного дома для какой-либо конфессии, другие конфессии оказывают ей свою помощь и поддержку. Например, когда в Баку в 2003 году строилась синагога для европейских евреев, другие религиозные конфессии страны обеспечили свою как моральную, так и материальную поддержку. Управление мусульман Кавказа, горские и европейские евреи, а также Православная церковь оказали совместную финансовую помощь строительству католической церкви в Баку. Сегодня во многих странах мира не только представители разных религий, но даже разных конфессий одной и той же религии смотрят друг на друга чуть ли не вражеским глазом. На фоне всего этого, упомянутые факты довольно-таки радуют и вызывают гордость. Несомненно, крепкие дружеские и братские отношения между проживающими в современном Азербайджане многочисленными этническими и религиозными группами, а также их общая судьба сыграли важную роль в формировании идеальной модели мультикультурализма. На протяжении всей истории представители поселившихся на этих землях разных народов и этнических групп попадали в зависимое положение от могущественных государств. В результате, несмотря на различия в религиозно-культурных взглядах, существующие условия сблизили их.

Толерантность в современном Азербайджане с каждым днем все более и более отражается не только в обществе, но и в сознании, позиции, отношении и образе жизни каждого гражданина. Одной из

“İslamsng.com” (“MDB-də İslam”) saytında Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının “İlham Əliyevin unikal multikulturalizm və tolerantlıq modeli” sərlövhəli məqaləsi yerləşdirilib.

Məqalədə deyilir ki, son illər Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə istər regionda, istərsə də beynəlxalq səviyyədə əldə edilən nailiyyətlər ictimai-siyasi və sosial həyatla birbaşa bağlı olan dinə müsbət təsir göstərir.

Mübariz Qurbanlı yazır: “Ölkədə fəaliyyət göstərən konfessiyalar arasında heç bir qarşıdurma müşahidə olunmur, əksinə, onların arasındakı münasibətlər artıq birgə əməkdaşlığın yeni səviyyəsinə - qarşılıqlı yardım və empatiya mərhələsinə yüksəlib. Bunu belə bir fakt təsdiq edir ki, hər hansı konfessiya üçün ibadət evi tikiləndə digər konfessiyalar ona yardım və dəstək göstərirlər”.

Müasir Azərbaycanda tolerantlığın təkcə cəmiyyətdə deyil, həm də hər bir vətəndaşın şüurunda, mövqeyində və həyat tərzində gündən-günə özünü daha qabarıq göstərdiyini qeyd edən müəllif vurğulayır: “Bunun əsas səbəblərindən biri milli siyasətin Konstitusiyada və “Dini etiqad azadlığı haqqında” Qanunda nəzərdə tutulmuş, milliyyətindən, dinindən, dilindən və irqindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən əsas müddəalarıdır. İnsan hüquq və azadlıqlarına, o cümlədən vicdan və din azadlığına dair qanunvericilik bazası respublikada tolerantlıq və dini dözümlülük kimi ali dəyərləri möhkəmləndirmək məqsədi ilə beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb. Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış azərbaycançılıq ideologiyasının əsasını da məhz belə yanaşma təşkil edir. Ömrünün 30 ilindən çoxunu Azərbaycanın və onun xalqının rifahına həsr etmiş Heydər Əliyev dövlət-din münasibətlərinin tənzimlənməsində, dini-əxlaqi dəyərlərin müdafiə olunmasında və dini tolerantlığın möhkəmlənməsində müstəsna xidmətlər göstərmiş, özündən sonra bu sahədə böyük siyasi və dövlətçilik təcrübəsi qoyub getmişdir. Ümummilli Lider gənclərin dini dözümlülük və tolerantlıq ruhunda tərbiyə olunmasının əhəmiyyətini həmişə vurğulayırdı”.

Mübariz Qurbanlı yazır ki, Ümummilli Liderin siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, İslam dininə hörmətin və ehtiramın, digər dinlərə tolerantlığın möhkəmlənməsi sahəsində xeyli işlər görülüb.

Məqalədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın başçılıq etdiyi Heydər Əliyev Fondunun multikulturalizmin Azərbaycan modelinin reallaşmasında xüsusi rolu qeyd edilir. Müəllif yazır: “Heydər Əliyev Fondu özünün beynəlxalq fəaliyyətində çoxsaylı layihələr həyata keçirir, onların sayəsində Azərbaycan multikulturalizminin üstünlüklərini əyani nümayiş etdirir. Fond “Azərbaycan - tolerantlıq məkanı” layihəsi çərçivəsində həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda onlarca tədbir və layihə həyata keçirib”.

Məqalədə VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında Prezident İlham Əliyevin çıxışından sitatlar da gətirilib.

Məqalənin orijinalı ilə aşağıdakı linkdən tanış ola bilərsiniz

*http://İslamsng.com/aze/opinion/15044*

# GƏNCLƏR MİLLİ DƏYƏRLƏRİMİZİN QORUYUCULARI VƏ DAŞIYICILARIDIR



Yanvarın 24-də Yeni Azərbaycan Partiyasının (YAP) Nəsimi rayon təşkilatı və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə dini maarifləndirməyə həsr olunmuş “Gənclər milli dəyərlərimizin qoruyucuları və daşıyıcılarıdır” mövzusunda tədbir keçirilib.

Öncə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə “Sağlam Gəncliyə Doğru” İctimai Birliyi tərəfindən hazırlanan “Oxu!” sənədli filmi nümayiş etdirilib.

Daha sonra çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı mövzu ilə bağlı ətraflı məlumat verib. O, Azərbaycandakı tolerant və multikultural mühit, həmçinin radikal dini cərəyanların, ekstremizmin təbliğində gəncləri özünə cəlb edən cəhətlər və buna qarşı profilaktik tədbirlərdən danışıb. Milli Məclisin deputatı DQİDK tərəfindən ölkəmizdə həyata keçirilən dini maarifləndirmə işlərinin əhəmiyyətinə toxunub. M.İbrahimqızı Dövlət Komitəsinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib.

DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, bu gün dünyanın bir sıra ölkələrində dinlər və məzhəblər arası münasibətlərdə gərginlik artsa da, respublikamızın tarixi ənənələri müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşamasına imkan verir. Prezident İlham Əliyev Azərbaycanda 2016-cı ili “Multikulturalizm İli”, 2017-ci ili isə “İslam Həmrəyliyi İli” elan etməklə bütün dünyaya birlik və həmrəylik mesajı verib.



Dövlət Komitəsi sədrinin sözlərinə görə, respublikamız dünyəvi dövlət olmaqla yanaşı, eyni zamanda öz milli-mənəvi dəyərlərinə söykənən dövlətdir. M. Qurbanlı deyib ki, Azərbaycan çoxmədəniyyətli, çoxkonfessiyalı, dünyəvi dövlətdir və o, dünyəviliyi kənardan hər hansı təsir olmadan seçib: “Dinin dövlətdən ayrı olması dünyəviliyin təməl daşıdır və bu, heç də dövlətin dini, dindarı diqqətdən kənarda saxlaması deyil. Əksinə, dövlət bütün dinlərə fəaliyyət göstərmələri, inkişaf etmələri üçün hər bir şəraiti yaradır. Bunun ən yaxşı nümunəsi isə Azərbaycandır”. Komitə sədri onu da qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri modeli bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dini radikalizm və xurafat kimi təhdidlərin mövcud olduğunu deyən Komitə sədri qeyd edib ki, Dövlət Komitəsi tərəfindən dini mühitdə cərəyan edən bu kimi mənfi halların qarşısının alınması, eləcə də dini radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə silsilə maarifləndirici tədbirlər həyata keçirilir. O, DQİDK-nın sifarişi əsasında “Fitnə”, “Şəhadət”, “Vəhdət qanımızdadır”, “Üfüqdəki gələcək” adlı sənədli filmlərin çəkildiyini diqqətə çatdırıb.

Sonra DQİDK-nın sədri Mübariz Qurbanlı və Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov mövzu ilə bağlı gənclərin çoxsaylı suallarını cavablandırıblar.

# AZƏRBAYCANDA TOLERANTLIQ MÜHİTİNİN QORUNUB SAXLANILMASI ÜÇÜN HÜQUQİ BAZA FORMALAŞDIRILIB

Azərbaycan hökuməti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının ayrılmaz bir hissəsi kimi yanaşır. Tolerantlıq mühitinin qorunub saxlanılması üçün hüquqi baza formalaşdırılıb. Azərbaycanda qeyri-müsəlman dini icmalarına, müxtəlif dini konfessiya nümayəndələrinə daim diqqət və qayğı ilə yanaşılır.

Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə yanvarın 22-23-də "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda keçirilən regional konfransda bildirilib.



Siyəzən rayon Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə DQİDK və rayon icra hakimiyyətinin rəhbər şəxsləri, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov bu cür maarifləndirmə tədbirlərinin əhəmiyyətini yüksək qiymətləndirərək, İslam dəyərlərinin düzgün təbliğ olunması istiqamətində rayonda həyata keçirilən işlərin nəticələrindən bəhs edib. Bildirib ki, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində və özünüdərkində böyük əhəmiyyət daşıyır.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışı zamanı ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi istiqamətində qarşıda duran vəzifələrdən, eyni zamanda tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsinin vacibliyindən danışıb.

Komitə sədri Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın özünəməxsus dövlət-din münasibətləri modelinin formalaşdırılmasında, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında əvəzsiz xidmətlərindən bəhs edib. Vurğulayıb ki, Ulu Öndər zəngin irsimizi, mədəniyyətimizi və adət-ənənələrimizi yaşatmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirib. Ümummilli Liderin siyasətinin davamı olaraq bu gün Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasını, təbliğ və təşviqini daim diqqət mərkəzində saxlayır.

Mübariz Qurbanlı dini radikalizmin doğura biləcəyi mənfi nəticələrdən də danışıb. Qeyd edib ki, dini siyasiləşdirmək, ondan sui-istifadə etmək istəyənlərə, din adı altında ictimai-siyasi sabitliyi pozmağa çalışanlara, gəncləri dini radikal qruplara cəlb etməyə cəhd göstərənlərə aramızda yer olmamalıdır. Bütün cəmiyyət bu



cür hallara qarşı həm ideoloji, həm siyasi, həm də hüquqi baxımdan mübarizə aparmalıdır.

QMİ-nin səlahiyyətli nümayəndəsi Cavanşir Əfəndiyev çıxışında bölgələrdə cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz barədə doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərinin vacibliyini qeyd edib.

***Konfrans işini növbəti gün "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirib.***

Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Təhminə Bəxtiyarova rayondakı dini durum barədə ətraflı məlumat verib. DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi işləri müsbət qiymətləndirən T.Bəxtiyarova, eyni zamanda bildirib ki, respublikamızda dini maarifçilik işinin davam etdirilməsi zəruridir.

Daha sonra çıxış edən DQİDK sədrinin müavini Gündüz İsmayılov qeyd edib ki, dini ekstremizm və radikalizmlə ideoloji müstəvidə mübarizənin daha effektiv aparılması, eləcə də milli-mənəvi dəyərlərimizin təbliği istiqamətlərində maarifçilik işinin təşkili məqsədilə DQİDK digər dövlət qurumları ilə birgə kompleks tədbirlər həyata keçirir. G.İsmayılov vurğulayıb ki, Azərbaycanda dini radikalizmin yayılmasına qarşı həyata keçirilən maarifləndirmə tədbirləri öz müsbət nəticəsini verməkdədir. DQİDK-nın sədr müavinin sözlərinə görə, davamlı olaraq respublikanın bütün şəhər və rayonlarında milli-mənəvi və dini dəyərlərimizin, həmçinin ölkəmizin tolerantlıq və multikultural ənənələrinin təbliği və təşviqi üçün çox böyük işlər görülür.

Natiq respublikamızdakı mövcud dini durum, dövlət-din münasibətləri, dövlətin dinə qayğısı, Azərbaycanın zəngin tolerantlıq ənənələri barədə də ətraflı məlumat verib. Sədr müavini dinimizdə radikalizm və ekstremizmin olmadığını, tam əksinə, İslam dininin sülh, qardaşlıq, birlik dini olduğunu dinləyicilərin diqqətinə çatdırıb.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ŞİMAL BÖLGƏSİNDƏN OLAN SAKİNLƏRİN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 22-də Siyəzən şəhərində şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının sakinləri iştirak edib.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi və digər məsələlərlə bağlı müraciət ünvanlayıblar.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Bir sıra müraciətlər yerindəcə həll edilib.

Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara isə müvafiq qurumlara müraciət etmələri tövsiyə olunub.



# BAKIDA "SEYİD YƏHYA ŞİRVANİ BAKUVİ VƏ TƏSƏVVÜF ƏNƏNƏSİ" MÖVZUSUNDA TƏDBİR TƏŞKİL EDİLİB






Yanvarın 28-də Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı, Azərbaycan Dillər Universitetinin dəstəyi ilə "Seyid Yəhya Şirvani Bakuvi və təsəvvüf ənənəsi" mövzusunda birgə tədbir keçirilib.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla tədbirin önəmindən danışıb. Bildirib ki, buradakı məruzələr sayəsində tələbələrin, alimlərin təsəvvüf anlayışları dərinləşəcək, eyni zamanda onların bir-birinə münasibətləri, daxili əxlaqı, gözəlliyi daha çox üzə çıxacaq.

Rektor deyib ki, insan mənəviyyatının son dərəcə mühüm məqamlarından biri onun öz könlü ilə birləşməsinə aparan yollardır. Bu, təsəvvüfdür, bu, insanın özünü tanımasına yönəlmiş bir yoldur. Türk dünyasının alimləri bu yolun türk mənəviyyatına, müsəlman, dünya xalqlarının əxlaqına uyğun gəlməsini dəfələrlə sübut ediblər.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib ki, bu gün milli-mənəvi dəyərlərimizin qlobal imperializm tərəfindən hədəfə alındığı, cəmiyyətin dəyərsizləşdirilmək, mənəviyyatsızlaşdırılmaq istənildiyi bir vaxtda belə tədbirin keçirilməsi milli-mənəvi dəyərlərimizin qorunmasına böyük töhfədir. Türk dünyasının inzibati, siyasi sərhədləri var. Ancaq türk dünyasının mənəvi sərhədləri onun inzibati-siyasi sərhədlərindən qat-qat böyükdür.

H.Babaoğlu qeyd edib ki, bu gün Türkiyə və Azərbaycan prezidentləri məhz mənəvi dünyamızın bərpa olunması, onun sərhədlərinin daha da genişləndirilməsi üçün müxtəlif təşkilatlar yaradırlar. Bu təşkilatlar özümüzü tanıtmaq, eyni zamanda, mənəvi dünyamızı bütün dünyaya yenidən tanıtmaq baxımından olduqca əhəmiyyətlidir.

Milli Məclisin deputatı Qənirə Paşayeva deyib ki, Azərbaycanın türk dünyasının təsəvvüfünə, İslam dünyasına verdiyi töhfələrin gənclərə öyrədilməsi çox vacibdir. Təsəvvüf bizim tariximiz, düşüncə tərzimiz, fikrimiz, böyük mənəviyyatımızın bir parçasıdır. Deputat bildirib ki, bizim gənclərimiz tariximizi, mədəniyyətimizi dərindən bilməlidirlər. Müsəlman dünyasında bir sıra cərəyanlar var. Təəssüf ki, onlar İslam dinindən istifadə edirlər. Amma əslində əməllərinin İslam dini ilə heç bir əlaqəsi yoxdur. Ona görə gənc nəslin dinimizi daha doğru öyrənməsi çox vacibdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, Şərqin, o cümlədən Azərbaycan xalqının çox dahi şəxsiyyətləri var. Yunus Əmrə İnstitutu Türkiyə, Azərbaycan və digər ölkələrdə bu şəxsiyyətlərə həsr olunmuş konfranslar keçirir, bu istiqamətdə böyük işlər görür. "Ümid edirəm ki, tədbir iştirakçıları Seyid Yəhya Şirvani Bakuvi kimi müdrik şəxslə daha yaxından tanış olacaq, onu öz yaddaşlarında Azərbaycan xalqının yetişdirdiyi böyük şəxsiyyət kimi əbədi yaşadacaqlar", - deyə o bildirib.

Yunus Əmrə İnstitutu Bakı Türk Mədəniyyət Mərkəzinin müdiri Cihan Özdemir diqqətə çatdırıb ki, təsəvvüf bizim daxili dünyamızı zənginləşdirir, türk mədəniyyətinin tanıdılmasına yol açır. Bizim tariximizi təsəvvüfsüz təsəvvür etmək mümkün deyil və bu gün təsəvvüf hələ də yaşayır. Təsəvvüf min illərdən bəri insanın kamil fikrini və modelini müdafiə edən və yaşadan anlayışdır.

Sonra Azərbaycan İlahiyyat İnstitutunun islamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov "Azərbaycan təsəvvüf ənənəsində xəlvətliyin yeri", Kalkandələn Dövlət Universitetinin müəllimi Metin İzeti "Balkan ölkələrində Seyid Yəhya Şirvani ənənəsi", Ankara Sosial Elmlər Universiteti Qrafik dizayn fakültəsinin müəllimi Ümit Akdemir "Bir sevgi rəhbəri Seyid Yəhya Şirvani və əsərləri", Azərbaycan İlahiyyat İnstitutunun elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov "Azərbaycanda birgəyaşayış ənənəsinin formalaşmasında təsəvvüfün rolu", tədqiqatçı, yazıçı, Türk Təsəvvüf Musiqisi Vəqfi, İstanbul tarixi türk musiqisi qrupunun qurucu müdiri Ömer Tuğrul İnançer "İslam, Təsəvvüf və xəlvətilik", Gazi Universiteti türk dili və ədəbiyyatı kafedrasının müəllimi Mustafa Tatçı "Əbədi silsilə və Yəhya Şirvani" adlı məruzələrlə çıxış ediblər.

Tədbir çərçivəsində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Türk Təsəvvüf Musiqisi" adlı konsert keçirilib.

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Beyləqan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə yanvarın 24-25-də "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

İkigünlük tədbirdə RİH-in ərazi nümayəndələri, bələdiyyə sədrləri, dindarlar, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Seminar-müşavirəni giriş sözü ilə açan Beyləqan RİH başçısının birinci müavini Telman Məstanov bildirib ki, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsi xüsusi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, ictimaiyyətin, xüsusilə gənclərin doğru mənbədən dini bilgilərə yiyələnmələri olduqca vacibdir.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycan xalqının əsrlər boyu digər din və mədəniyyətlərə dözümlü münasibəti ilə seçildiyini, eyni zamanda onlarla sülh və qarşılıqlı anlaşma şəraitində yaşadığını diqqətə çatdırıb. O, respublikamızda heç zaman dini zəmində ədavət və qarşıdurma hallarının müşahidə olunmadığını qeyd edib.

S.Salahlı Ümummilli Lider Heydər Əliyevin mənəvi dəyərlərimizə, o cümlədən din sahəsinə diqqət və qayğısından da danışıb. Həmçinin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın respublikamızın dünya ölkələri sırasında öz layiqli yerini tutması, tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılması istiqamətində xüsusi xidmətlərini qeyd edib.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov mövzu ətrafında danışaraq zərərli dini cərəyanların əsas fəaliyyət metodlarına toxunub. Natiq gənclərin müəyyən bilgilərə yiyələnmələrinin, eyni zamanda radikalizmə qarşı mübarizədə fəal olmalarının vacibliyini diqqətə çatdırıb.

İkigünlük seminar-müşavirə tədbir iştirakçılarının suallarının cavablandırılması ilə yekunlaşıb.



# UNUDULMAYAN TARİX – MÖVCUD TƏHDİDLƏR



**Səyavuş HEYDƏROV,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini*

İllər ötdükcə tarixi hadisələrin doğru təhlili və bu hadisələrə obyektiv qiymətin verilməsi zərurəti daha qabarıq şəkildə hiss edilir. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələri bu baxımdan olduqca əhəmiyyətlidir. Yanvarın 20-də növbəti dəfə ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı Sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciə və qətliama gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

***Bu hadisə niyə baş verdi? Bunun qarşısını almaq mümkün deyildimi?***

Bəli, xalqımız tarixən, xüsusilə XIX-XX əsrlərdə təcavüzlərə, soyqırımına və ayrı-seçkiliyə məruz qalmışdı. Fəqət 20 Yanvar hadisəsi daha ağrılı və daha faciəvi idi. Çünki bu faciəni törədənlər xalqın inandığı, öz ordusu hesab etdiyi, övladlarını onun sıralarında xidmət etməyə göndərdiyi Sovet ordusu tərəfindən törədilmişdi. Həmin gün bütün xalqa öz dövlətinin rəhbərliyi tərəfindən xəyanət edilmişdi. Respublikanın yerli rəhbərliyi isə öz bacarıqsızlığı, qorxaqlığı və biganəliyi ilə baş verən hadisələrə seyrçi qismində qalmış, əliqanlı imperiyanın qəzəb və qəddarlıq dolu cinayətlərinə birbaşa şərait yaratmışdı. Həmin dövrü yaşayan insanlar bilir ki, 20 Yanvardan öncə digər Sovet respublikalarında da imperiyanı narahat edən, etiraz əlamətləri ilə müşayiət edilən proseslər gedirdi. Qazaxıstan və Gürcüstanda baş verən hadisələri buna misal göstərmək olar. Ancaq Azərbaycanda baş verən bu hadisə xüsusi amansızlıq və qəddarlıqla törədildi. Niyə məhz Azərbaycan? Nə idi Azərbaycanın hədəf seçilməsində məqsəd? Buna bir çox səbəblər var idi. Birincisi, Azərbaycan müsəlman Şərqində ilk demokratik dünyəvi dövlət qurmuş ölkə idi. Xalqımız daxilən müstəqillik ruhuna bağlı və bu ənənəyə sahib dəyərlər sisteminə malik idi və bu xüsusiyyətlər Sovet rejimi tərəfindən həzm edilmirdi. İkincisi, Azərbaycan coğrafi-strateji mövqe və sərvətlər baxımından çox zəngin respublika idi. İnkişaf etdiyi təqdirdə böyük iqtisadi güc mənbəyinə çevrilə bilərdi. Üçüncüsü isə, ölkəmizin milli-mənəvi və dini dəyərləri hər şeyə rəğmən qorunub saxlanılmış, milli xüsusiyyətlər itirilməmişdi. Bu imperiya rəhbərliyi Azərbaycanı həmişə təhdid və təhlükə mənbəyi kimi görürdü. Məhz, Ulu Öndər Heydər Əliyev o dövrdə Azərbaycana rəhbərlik edərkən Sovet dövlətinin bu nifrət və qəzəbini qismən də olsa, neytrallaşdıra bilmişdi. Heydər Əliyevə qədər böyük sərvətləri olmasına baxmayaraq geridə qalmış ölkə onun rəhbərliyi sayəsində bir çox sahələrdə, xüsusilə neft sənayesində ciddi irəliləyiş əldə etmişdi. Azərbaycanda nəinki SSRİ, dünya əhəmiyyətli sənaye obyektləri yaradılmışdı. Belə sürətli inkişaf tendensiyası Azərbaycana qarşı ərazi iddiaları olan erməniləri və ermənipərəst qüvvələri məmnun edə bilməzdi. 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi erməni lobbisini çox ciddi narahat edirdi. Ermənilər qorxurdular ki, Heydər Əliyevin bu təyinatı Azərbaycanın daha sürətli inkişafına şərait yarada, perspektivlər formalaşdıra bilər. Bununla bağlı fəaliyyətə keçən lobbi Azərbaycanın daxilində mənfur ünsürlərdən də istifadə edərək Ulu Öndərə qarşı kampaniya başlamışdı. Təhlillər göstərir ki, həmin dövrdə SSRİ-nin iqtisadi cəhətdən zəifləməsi, zəruri islahatların keçirilməməsi, "yenidənqurma" siyasətinin iflasa uğraması bu imperiyanı məhvə sürükləyir və Qərb də bu vəziyyətdən maksimum dərəcədə bəhrələnməyə çalışırdı. Həmin dövrdə Qərbin maraqları ilə erməni lobbisinin maraqları üst-üstə düşürdü. Belə ki, dənizdən dənizə olan ərazidə, yəni Türkiyə, Azərbaycan və Gürcüstan ərazisində "Böyük Ermənistan" xülyasını reallaşdırmağı arzulayan ermənilər SSRİ-nin zəifləməsini fürsət bilib Dağlıq Qarabağda milli ədavəti qızışdırırdı. Qərb də SSRİ-nin parçalanması üçün ən çox milli məsələnin qabardılmasına çalışırdı. Tarixin hər dövründə "ikiüzlü" və "ləyaqətsiz" hərəkətləri ilə seçilən erməni xisləti bir tərəfdən Qərbin maraqlarına xidmət edir, digər tərəfdən Sovet rəhbərliyini Azərbaycana qarşı yönəldirdi. Sovet rəhbərliyinin "parçala və hökmranlıq et" siyasəti ilə Dağlıq Qarabağın Azərbaycandan qopardılması və respublikanın zəif, acılı vəziyyətdə saxlanılması planlaşdırılırdı.

***Təsadüf, yoxsa düşünülmüş plan?***

Qanlı 20 Yanvar hadisələri ömrünün sonuna çatmış cinayətkar imperiyanın təsadüfi, yaxud da birdən-birə gözlənilməz reaksiyası deyildi. Əslində hər şey daha əvvəldən və planlaşdırılmış şəkildə başlamışdı. Milli məsələlərin xüsusiyyətini dərindən bilməyən Qorbaçovun erməni lobbisinin dəstəyi ilə hakimiyyətə gəlişi onda ermənilərə qarşı xüsusi "məhəbbət" yaratmışdı. Onu da qeyd edək ki, Qorbaçov ailəsinin SSRİ ərazisində yaşayan müsəlmanlara qarşı xüsusi antipatiyası var idi. Bu da öz növbəsində Qorbaçova milli məsələləri düzgün qiymətləndirməyə imkan vermirdi. Heç kimə sirr deyil ki, Qorbaçov Qərbin böyük planının kiçik bir nüansı idi. Hələ Stavropol vilayətinə rəhbərlik etdiyi dövrdə kənd təsərrüfatı sahəsində təcrübə mübadiləsi məqsədilə Kanadada səfərdə ikən Qərbin kəşfiyyat orqanları ilə "səmimi" əməkdaşlığa başlamışdı. Yəni əməkdaşlığın özü də erməni lobbisinin birbaşa vasitəçiliyi və erməni əsilli kəşfiyyatçı tərəfindən təşkil edilmişdi. Ermənilər hələ o dövrdən öz mənfur planlarını həyata keçirməyə başlamışdılar. Şübhəsiz ki, "satqın" Qorbaçov ermənilərin Azərbaycana qarşı olan ərazi iddialarına və get-gedə qızışan münaqişə qığılcımlarına məqsədyönlü şəkildə göz yumurdu. Dağlıq Qarabağ Muxtar Vilayətində nizam-intizam yaratmaq əvəzinə ona xüsusi idarəçilik statusu verməklə bugünkü mövcud münaqişənin əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması da bu böyük planın bir parçası idi. Qorbaçov yaxşı dərk edirdi ki, Heydər Əliyev vəzifədə ola-ola Azərbaycana zərbə vura bilməz. Ulu Öndər SSRİ-nin ali rəhbərliyində təmsil olunduğu müddətdə xalqımızın mənafeyini hər vachlə qoruyur, ermənilərin SSRİ rəhbərliyini Azərbaycana qarşı yönəltmə cəhdlərinin qarşısını alırdı. Məhz buna görə də xalqımızın "qara günləri" Ulu Öndərin vəzifədən uzaqlaşdırılmasından sonra başladı.

***Azərbaycan və Heydər Əliyev fenomeni***

Azərbaycanın yerli rəhbərliyinin xalqımızın maraq və mənafelərini qorumağa nə nüfuzu, nə də cəsarəti çatırdı. Belə bir vəziyyətdə başlamış Azadlıq hərəkatı xalqın milli və mənəvi gücünün məhsulu olsa da, faktiki olaraq lidersiz idi. Hərəkata rəhbərlik edən şəxslərin meydanda dildən iti çıxışlarının xaricində heç bir xüsusi keyfiyyəti yox idi. Bəziləri ilk dəfə eşitsə də, həmin dövrün canlı şahidi olaraq qeyd edə bilərəm ki, Azadlıq hərəkatının içində Vətəni sevən, xalqına bağlı, milli-mənəvi dəyərlərimizə sadiq insanlar olduğu qədər, satqın, xəyanətkar və milli maraqlara qarşı fəaliyyət göstərənlər də var idi. Bəzən xatırlarkən insan düşünür ki, Ulu Öndər Heydər Əliyev SSRİ rəhbərliyindən uzaqlaşdırılmasaydı, bu hadisələrin heç biri baş verməzdi. Onun qətiyyətli mövqeyi və sarsılmaz iradəsi qarşısında Qorbaçov Azərbaycana ordu yeridib günahsız insanları qətlə yetirə bilməzdi, bacarmazdı bunu. Bir sözlə, bu qanlı hadisənin qarşısını vaxtında almaq olardı. Bununla belə unutmaq olmaz ki, hər bir tarixi hadisə özündə bir çox ibrətləri ehtiva edir. 20 Yanvar hadisəsi baş verdiyində meydanlarda təntənəli nitq söyləyənlərin çoxu qaçıb gizlənmişdi. Ancaq Heydər Əliyev bütün siyasi qadağalara, təhdidlərə və təzyiqlərə baxmayaraq, ailə üzvlərinin və özünün həyatını təhlükəyə ataraq Moskvada yerləşən Azərbaycanın daimi nümayəndəliyinə gələrək bu hadisələri birmənalı şəkildə lənətlədi. Təsəvvür etmək çətin olsa da, dahi şəxsiyyət bu etirazı qanlı cinayəti törətmiş imperiyanın paytaxtından etdi və bütün dünyanı bu qanlı faciə barədə məlumatlandırdı. Ulu Öndərin bu cəsarətli bəyanatının xüsusi əhəmiyyəti ondan ibarət idi ki, həmin dövrdə imperiya Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasəti sona çatdırmaq üçün əlavə qoşun qüvvələrinin ölkəyə yeridilməsi planından çəkindi. Həmin zamanda ölkənin siyasi və Milli Azadlıq Hərəkatına rəhbərlik edən şəxslərin gizlənməsi nəticəsində meydana toplaşmış insanlar arasında ümidsizlik və çaşqınlıq yaranmışdı. Məhz Ulu Öndər Heydər Əliyevin məlum bəyanatı insanların azadlıq mübarizəsinə inamını daha da gücləndirdi, azadlıq eşqini alovlandırdı. İmperiya rəhbərliyi bu təcavüzkar niyyətini həyata keçirmək və sona çatdırmaq üçün istər ideoloji, istər inzibati bütün imkanlardan istifadə etdiyi halda Ulu Öndərin belə cəsarətli addımını gözləmirdi. Hətta imperiya rəhbərliyi tərəfindən belə bir fikir səslənmişdi ki, "Heydər Əliyev vaxtında zərərsizləşdirilməliydi". Bu faciənin dünya ictimaiyyətinin diqqət mərkəzinə düşməsi və Azərbaycan xalqının mübarizliyinin güclənməsi imperiyanı növbəti təcavüzkar addımlardan çəkindirdi. Nəticədə isə SSRİ-nin süqutu tezləşdi. Azərbaycandakı azadlıq mübarizəsini silah gücünə boğaraq digər Sovet dövlətlərinə də "gözdağı" vermək istəyən SSRİ rəhbərliyinin niyyəti də puça çıxdı.

İmperiya rəhbərliyi, eyni zamanda bu faciəni örtbasdır etməyə, hadisənin radikal-islamçı qüvvələr tərəfindən törədildiyini iddia etməyə çalışırdı. Bu məqsədlə siyasi rəhbərlik ölkədən qaçdıqdan sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadəyə ölkədə idarəçiliyi qəbul etmək təklif edilmişdi. Şeyx həzrətləri qurulmuş bu hiyləni vaxtında anlayaraq təklifə qəti etirazını bildirmişdi. Burada xüsusilə vurğulamaq yerinə düşərdi ki, həmin dövrdə Hacı Allahşükür Paşazadə dünya liderlərinə və Qorbaçova müraciət edərək ümumbəşəri dəyərlərə sığmayan bu vəhşiliyi qətiyyətlə pisləmiş və qəti etirazını bildirmişdi. Azərbaycanın tanınmış ziyalıları da bu etirazlara qoşularaq imperiyanın təcavüzkar siyasətini ifşa etmişdilər.

Ulu Öndər Heydər Əliyevin cəsarətli çıxışının imperiya rəhbərliyini çaşdırması və Uca Allahın böyük lütfü sayəsində Azərbaycanın qəhrəman oğlu imperiya caynağından salamat çıxıb ölkəmizə qayıda bildi. Xalqımızın maraqlarını canı bahasına müdafiə edən lider tarixi ədalət nəticəsində yenidən xalqın təkidi ilə hakimiyyətə gəldi. Hələ SSRİ-nin mövcud olduğu vaxtlarda belə Heydər Əliyev müstəqillik şüarları səsləndirən insanları qorumaq üçün əlindən gələni edirdi. Bu barədə kifayət qədər nümunələr söyləmək olar. İmperiyanın nəzarətinə baxmayaraq, dahi rəhbər bir çox millilik və müstəqillik tərəfdarlarını öz xüsusi bacarıq və istedadı ilə təqib və təzyiqlərdən qorumağa müvəffəq olmuşdu. Belə ki, ölkəmizdə müstəqilliyin bərpa edilməsinin zamanının yetişdiyini duyan Heydər Əliyev Naxçıvanda ikən Azərbaycanın üçrəngli bayrağını dalğalandırmaqla xalqa istiqlal yolunu göstərmişdi. Həmin dövrdə Bakıdakı yarıtmaz rəhbərlik bunu etməyə cəsarət etmədiyi halda, Ulu Öndər bu addımı atmışdı. Onun

davamı səh. 11

əvvəli səh. 10

1993-cü ildə yenidən hakimiyyətə gəlişi ilə Azərbaycan inkişaf yoluna qədəm qoydu.

***Müstəqil Azərbaycan və dövlət idarəçiliyi***

Ölkədə ictimai-siyasi sabitləşmə dövrü başladı və dünya miqyaslı neft layihələrinin icrası prosesinə start verildi. Bu uğurlu inkişaf bu gün də davam etməkdədir. Fəqət tarixin əsas xüsusiyyətlərindən biri də təkrarlanmağa meyil göstərməsindədir. Təcrübə və daxili hissiyyata söykənərək əminliklə demək olar ki, həmin dövrdə Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması məqsədilə oynanan çirkin və məkrli oyunların bənzərini bəzi dairələr bu gün yenidən təkrarlamağa çalışır. Heydər Əliyevi uzaqlaşdırmaqla Azərbaycanı gücsüz vəziyyətə gətirənlər eyni ssenari əsasında bu gün Azərbaycan Prezidentinə qarşı şüuraltı təxribat hazırlamaq istəyirlər. Bu qüvvələr yaxşı bilir ki, Azərbaycan dövlətinin inkişaf və tərəqqisinin başlıca qarantı cənab Prezident İlham Əliyevdir. Məhz buna görə də əsas hədəf dövlət rəhbəridir.

Bu gün Azərbaycanın qarşısında duran ən vacib məsələ Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsidir. Bu prosesin yaxınlaşması görünməkdədir. Artıq Ermənistandakı gərginlik dalğası genişlənməkdə və iqtisadi vəziyyət zəifləməkdədir. Azərbaycanda isə beynəlxalq iqtisadi layihələrin reallaşması və idarəetmə sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsilə ölkəmiz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Belə bir vəziyyətdə zamanın Azərbaycanın xeyrinə işləməsi və beynəlxalq nüfuzunun güclənməsi, eləcə də ictimai-siyasi sabitlik fonunda əhalinin rifah halının yaxşılaşması Azərbaycana qarşı təcavüzkar siyasət yürüdən erməni lobbisini və ölkədə hakimiyyət iddiasında olan siyasi müxalifətin ümidlərini puça çıxarmaqdadır. Ötən əsrin sonlarında erməni lobbisi SSRİ vasitəsilə həyata keçirdiyi siyasəti hazırda Qərb dairələri vasitəsilə icra etməyə çalışır. Burada da erməni lobbisi ilə bəzi Qərb dairələrinin maraqları üst-üstə düşməkdədir. Gəlin etiraf edək ki, Azərbaycan beynəlxalq güc mərkəzlərinin maraqlarının nəinki kəsişdiyi, hətta toqquşduğu coğrafi mövqedə yerləşir. Bu baxımdan ölkəmizə yönəlmiş təzyiq və hücumları əsasən belə izah etmək olar. Birinci əsas məsələ Azərbaycanın müstəqil və cəsarətli siyasəti ilə bağlıdır. Ulu Öndərin əsasını qoyduğu dövlət idarəçiliyi və xalqımızın milli maraqlarına tam uyğun müstəqil siyasət prinsipləri günümüzdə daha da təkmilləşmiş formada tətbiq edilir. Azərbaycanın müstəqil siyasəti ona geniş manevr imkanları və proseslərə nəzarət şəraiti yaradır. Ancaq Qərbin bəzi dairələri, eləcə də ermənipərəst "konyak diplomatiyası"nın nümayəndələri müstəqil siyasət yürüdən Azərbaycan yerinə idarə olunan, onların maraqlarına xidmət edən Azərbaycan istəyirlər. Burada xüsusilə ölkəmizin yeraltı və yerüstü sərvətlərindən daha çox mənfəət əldə etmək niyyəti gizlənir. İkincisi, ölkəmizin ərazisindən qonşu dövlətlərə qarşı istifadə etmək imkanlarının yaradılması ilə əlaqədardır. Belə cəhdlər çox olub, bu gün də var. Bu niyyət isə ancaq zəif Azərbaycan mühitində mümkün ola bilər. Azərbaycan dövləti isə heç vaxt öz ərazisindən qonşularına qarşı təhdid vasitəsi kimi istifadə olunmasına imkan verməyib və verməyəcəkdir. Üçüncüsü isə, Azərbaycanın güclü dünyəvi dövlət prinsipləri ilə yanaşı, dini-mənəvi dəyərləri qoruyan və islamofobiya amilinə qarşı ciddi mübarizə aparan ölkə olmasıdır. Qərbin bəzi dairələri öz geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək üçün din amilindən alət kimi istifadə edirlər. Azərbaycanın humanist və sülhsevər siyasəti isə onların maraqları ilə ziddiyyət təşkil edir. Bu səbəbdən də Azərbaycan bir çox hallarda müxtəlif səpkili təzyiqlərlə üzləşir. Ermənipərəst Qərb dairələrinin təşviqi ilə bəzən Azərbaycanda baş verən hər hansı xırda məsələ şişirdildiyi halda, Ermənistandakı çoxsaylı qanun pozuntularına göz yumulur. Bununla belə, sadalanan niyyətlər ölkəmizin milli təhlükəsizliyi üçün kifayət qədər ciddi təhdidlərdir.

***Demokratiya, yoxsa xəyanətkar dağıdıcılıq?!***

Vaxtaşırı özünü müxalifət adlandıran qüvvələrin köhnəlmiş şüarlar və əsassız ittihamlarla ortaya çıxması da bu siyasətin təzahürüdür. Təsəvvür gücümüzü işə salıb düşünək ki, hakimiyyət belə satılmış qüvvələrin əlinə keçib. Necə olar Azərbaycanın aqibəti? "Korrupsiyaya son" , "Azadlıq" və "İstefa" şüarı səsləndirən bu insanlar nəinki Azərbaycanı, heç Afrikanın orta əsrlərdə qalmış "qəbilə" dövlətlərini də idarə edə bilməzlər. Buna onların nə bilik və səviyyəsi, nə də kadr potensialı imkan verir. Əslində dedikləri şüarlarda böyük məna var. "Korrupsiyaya son deyən" bu adamlar ötən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyətdə olduqları qısa müddət ərzində ən böyük korrupsiya və talançılıq nümunələri ortaya qoymuşdular. "Azadlıq" deyə-deyə azadlığımızı da az qala əldən verməşdilər. Yaxşı ki, Ulu Öndər Heydər Əliyev var idi. "İstefa" sözündə də haqlıdırlar. Onlar bu satqın, milli maraqlara zidd, ermənipərəst siyasətə son verib istefa verməlidirlər. Özlərini müxalifət adlandıran bu adamlar dərk etməlidirlər ki, Azərbaycan kimi güclü və qüdrətli ölkəni idarə etmək siyasətdə "dağıdıcılıq" təcrübəsindən başqa heç bir ideyası olmayanların başı üçün deyil. Onlar anlamalıdırlar ki, ölkəmiz çox mürəkkəb dövrdən keçir. Dünyada qanlı toqquşmalar, müharibə və münaqişələr hökm sürür. Belə bir vəziyyətdə dövlətçiliyimizi sarsıtmağa yönəlmiş hər addım dövlətə xəyanət hökmündədir.

Xəyanətkar şüurlu radikal müxalif qüvvələr etnik və dini faktordan da istifadə etməyə cəhd edirdilər. Bəzən siyasi mənfəət naminə dindar və ateistləri də birgə fəaliyyətə cəlb etməyə çalışırdılar. Dini kimlik-milli kimlik qarşıdurması yaratmağa, məzhəbçilik toxumları səpərək xurafat və radikalizmi alovlandırmağa tolerantlığımızı sarsıtmağa, milli həmrəyliyimizi pozmağa, dünyəvi dövlət prinsiplərini zəiflətməyə çalışanlarla da əməkdaşlığa, birgə fəaliyyətə üstünlük verirdilər. Bu istəklər bu gün də var. Ancaq səmimi inanclı insanlar başa düşürlər ki, dini siyasətə alət etmək olmaz, etmədilər də. Azərbaycandakı əsl inanclıların mütləq əksəriyyəti öz üçrəngli bayrağının və dövlətinin ətrafında sıx birləşdi. Ancaq bununla belə həmin dövrdə də, indi də məqsəd və məram eynidir. Azərbaycan zəifləsin, dövlət çöksün, təki biz qalib gələk. Mirzə Ələkbər Sabirin deyimi ilə "millət necə tarac olur olsun, nə işim var?" prinsipinə söykənərək bu xalqın qəlbində yer tapmaq mümkün deyil. Çünki onların kimliyi, niyyət və məqsədləri xalqımıza kifayət qədər məlumdur. Təəssüflə qeyd etmək lazımdır ki, bu qüvvələr xaricdən idarə olunmaqla yanaşı, dövlətçiliyimizə yönəlmiş bütün təxribatlarda "piyada" funksiyasını yerinə yetirirlər.

***Güclü Azərbaycan!***

Ölkəmiz istər siyasi, istər müdafiə, istərsə də təhlükəsizlik baxımından etibarlı əllərdədir. Azərbaycan xarici siyasətdə etibarlı tərəfdaş və dünyamiqyaslı layihələrin təşəbbüskarı qismində çıxış edir. Daxildə isə ciddi iqtisadi və idarəetmə islahatları davam edir. Ölkəmizdə ASAN Xidmət kimi möhtəşəm bir qurum formalaşıb ki, bu ölkəmizin əsas brendlərindən birinə çevrilib. Milli təhlükəsizliyimiz, hüquq mühafizə və təhlükəsizlik orqanlarının yorulmaz fəaliyyəti nəticəsində sabitlik və əmin-amanlıq yüksək səviyyədə təmin edilir. Ölkəmizdə dini durum da sabitdir. Ancaq bu bizdə arxayınlıq yaratmamalıdır. Unudulmamalıdır ki, müharibə şəraitində olan ölkə üçün milli təhlükəsizlik, dini-ideoloji sabitlik prioritet məsələdir. Belə bir həssas dövrdə xarici dairələrin "satqınçılıq" təkliflərinə şirniklənərək milli maraqları qurban verənləri Azərbaycan xalqı və tarix bağışlamayacaq. İnsan orqanizminin immun sistemi zəiflədikdə bədən xəstəliklərə düçar olub müxtəlif mikrobların təsirinə düşür. Bu baxımdan yaxın keçmişimizdə Suriyada və digər Şərq ölkələrində baş verən hadisələrdən nəticə çıxarılmalıdır. Ölkəmizin də zəifləməsi, sarsıdılması və gücdən düşməsi düşmənlərimizə ümid bəxş edə bilər. Məhz bu səbəbdən hər bir vətəndaş dövlətini qorumaq üçün öz üzərinə düşəni etməli, təxribatlara uymamalı, populist vədlərə aldanmamalı, dövlətçiliyə yönəlmiş hərəkətlərin iştirakçısına çevrilməməli, ölkəmizdəki quruculuq işlərinə kölgə salmamalı, dövlətin beynəlxalq nüfuzuna xələl gətirməməli, bir sözlə, Azərbaycanın uğurlu gələcəyinin təmin edilməsində əlindən gələni əsirgəməməlidir.

# TENGİZ TXİLAVA: GÜRCÜSTAN ƏRAZİSİNDƏ ERMƏNİ TERRORİSTƏ ABİDƏ QOYULMASI BİZİM AZƏRBAYCAN İLƏ DOSTLUĞUMUZA ZƏRBƏDİR




Axalkalaki rayonunun Buğaşen kəndində Gürcüstan dövləti və xalqı üçün heç bir xidmətləri olmayan, bizə dost və qardaş olan Azərbaycan xalqına qarşı döyüşən bir insana abidə qoymaq çox xoşagəlməz, iyrənc hadisədir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Tengiz Txilava söyləyib. Onun sözlərinə görə, xoşagəlməzlik heç də onun erməni olmasına və ya kiminsə antierməni baxışlarına görə deyil: "Gəlin əvvəlcə özümüzə sual verək. Bu adamın Gürcüstan dövləti qarşısında hansı xidmətləri olub ki, ona abidə ucaldılır? Onun Buğaşen kəndində anadan olması hər hansı xidmət demək deyil. Bir şəxsə hər hansı bir ölkədə abidə qoyulması üçün onun vətən uğrunda misilsiz xidmətləri olmalıdır".

Politoloq deyib: "Tbilisidə hamı tərəfindən qəbul olunan aktyor Frunzik Mkrtçyana heykəl ucaldılıb və kimsə buna etiraz etmədi. Əminəm ki "Mimino" filmində onun rolunu hər kəs görüb, izləyib. Mikayel Avakyan isə separatçıdır. Onun Dağlıq Qarabağ müharibəsində Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı hərbi əməliyyatlarda iştirak etməsi ona Gürcüstanda heykəlin qoyulmasını imkansız edir".

Mikayel Avakyanın Abxaziyada daxili xidmət orqanları sistemində çalışdığını və münaqişə zamanı kimin tərəfində olduğunu xatırladan politoloq deyib ki, bu cür terrorçulara abidə qoymaq həm daxildə sabitliyi, həm də Gürcüstanın Azərbaycan ilə münasibətlərini pozmağa yönəlmiş addımdır.

T.Txilava bildirib ki, bizim ikitərəfli əlaqələrimizi pozmaq istəyən çoxsaylı qüvvələr var. Onlar təkcə Ermənistan tərəfindən deyil, digər dövlətlər tərəfindən də idarə olunurlar. Bizim Azərbaycan ilə dostluğumuzun inkişafı onları ciddi narahat edir. Ona görə də bütün mümkün vasitələrdən istifadə edərək dövlətlərimiz arasında münasibətləri pozmağa çalışırlar. Təəssüf ki, ermənilər də bu təxribatların aləti olurlar.

Politoloq hesab edir ki, bu cür hallara sərt cavab verilməli və kəskin etiraz olunmalıdır. "Biz əlimizdən gələni etməliyik ki, bu cür hallar Gürcüstanda bir daha baş verməsin", - deyə T.Txilava vurğulayıb.

# SOSİAL ŞƏBƏKƏLƏR: RADİKALLARIN TƏLİM POLİQONU VƏ YA "YIXILMAMAQ" ÜÇÜN "QAÇMAĞI" ÖYRƏNMƏYİN VAXTIDIR



**Rəfi QURBANOV,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini*

Qloballaşan dünyada internet müasir insanın əsas məlumat mənbəyi hesab olunur. İnternetin və mobil telefonların hər evə daxil olması nəticəsində sosial media istifadəçilərinin sayı hər keçən gün artmaqdadır. 2018-ci ilin statistikasına görə, dünyada 4 milyarddan çox insan (dünya əhalisinin sayı 7.7 milyard nəfərdir) internetdən istifadə edir. Bu, dünya əhalisinin təxminən 53%-i deməkdir. Onlardan 3.196 milyardı sosial şəbəkə istifadəçisidir. Aparılan araşdırmalara əsasən, sosial şəbəkələrdən ən çox istifadə edənlərin yaşı 18-34 arasında dəyişir. Müqayisə üçün bildirim ki, Azərbaycan əhalisinin 80%-i internet istifadəçisidir. Sosial şəbəkə istifadəçilərinin sayı isə 3 milyondan çoxdur. Bu göstəricilər ölkəmizdə internet azadlığının təmin edilməsi kimi xarakterizə oluna bilər.

İnternetin və sosial şəbəkələrin bizə verdiyi imkan və azadlıqlardan sui-istifadə edilməsi halları gün-bəgün artmaqdadır. Həmin imkanlar bir çox hallarda kibercinayət əməllərini yerinə yetirmək üçün vasitəyə çevrilir, istifadəçilərin fərdi məlumatları oğurlanır və ya istifadəçilər sosial şəbəkə vasitəsilə hansısa ideoloji mərkəzin qurbanına çevrilir. Məsələn, bu gün ölkəmizdə dövlət və özəl sektorda çalışan vətəndaşlar maaşlarını bank kartı vasitəsilə alır. Bu, özlüyündə bizim fərdi məlumatlarımızın oğurlanması riskini artıran amildir. Yəni hər an kiber hücuma məruz qalma ehtimalı mövcuddur. Digər bir nümunə 2018-ci ilin "Feysbuk işi"dir. Belə ki, Donald Trampın seçki kampaniyası zamanı 87 milyon "Feysbuk" istifadəçisinin məlumatlarının onların xəbəri olmadan Britaniyanın "Cambridge Analytica" şirkəti tərəfindən toplandığı ortaya çıxdıqdan sonra "Feysbuk" şirkətinin icraçı direktoru Mark Zukerberq ABŞ Konqresində ifadə verməyə çağırılmışdı. İddia olunurdu ki, ABŞ Prezidenti Donald Trampın seçki kampaniyasının təşkilatçıları seçki kampaniyası dövründə - 2016-cı ildə potensial seçiciləri səsverməyə cəlb etmək üçün Britaniya şirkətinin xidmətlərindən istifadə ediblər.

Bütün bu faktlar deməyə əsas verir ki, artıq virtual dünyada təhlükəsizliyimiz təhdid altındadır. Bu mənada ideoloji təhlükəsizlik də istisna deyil.

Hesab olunur ki, müasir və qloballaşan dünyada insanın iki kimliyi mövcuddur. Bunlardan biri milli kimlik, digəri isə virtual kimlikdir. Nəzərə alsaq ki, virtual kimliyi formalaşdıran əsas vasitə sosial şəbəkələrdir, bu zaman belə kimliklərin müxtəlif cəmiyyətlərdə milli kimliklə üst-üstə düşməsi çətindir. Dünya əhalisinin yarısından çoxunun bir-biri ilə sosial şəbəkə vasitəsilə əlaqə qurduğunu nəzərə alsaq, görərik ki, bu məkan böyük bir "ölkəni" (əhalisinin sayına görə) xatırladır. Bu "ölkədə" insanlar fikirlərini sərbəst bölüşür, əlaqə qurur, sevdiyi, sevmədiyi nəsnələri təqdim edir, hər hansı məsələyə münasibət bildirir və s. Bura dünya liderləri, siyasətçilər, tanınmış professor və incəsənət xadimlərindən tutmuş, terrorçuların, radikal cərəyanların nümayəndələri və zərərli dini ideologiya daşıyıcıları kimi insanların ortaq məkanıdır. Belə olan halda istifadəçilər gün ərzində faydalı məlumatlarla yanaşı, qəbul etmədiyi fikir, ifadə və ya zərərli hesab etdiyimiz ideologiya axınlarına məruz qalmaqdan sığortalanmır. Bu səbəbdən zorakılığın, radikalizmin və zərərli ideologiyaların yayılmasında sosial şəbəkələrin rolu hər keçən gün daha da artır. Buna nümunə kimi, "əl-Şabab", "Boko Haram", İŞİD və digər terror qruplarının sosial şəbəkələr vasitəsilə təbliğatını göstərmək olar. "Tvitter", "Yutub" və digər sosial şəbəkə platformaları onlar üçün ucuz və effektli təbliğat vasitəsidir. Heç bir fiziki güc və əlavə resurs sərf etmədən özlərinə tərəfdar toplaya, istifadəçiləri terrorçuya çevirə bilirlər. Ekspertlər hesab edir ki, adıçəkilən terror təşkilatlarına qoşulan "döyüşçü"lərin coğrafiyasının genişlənməsinin əsas səbəbi sosial şəbəkələr vasitəsilə aparılan təbliğatın nəticəsidir. Əvvəllər terrorçular özlərinə tərəfdar toplamaq üçün dünyanın müxtəlif ölkələrinə gedib orada təbliğat işi aparmalı idilər. Lakin bu, bir çox hallarda uğursuz olurdu. Çünki onlar həmin ölkələrin xüsusi xidmət orqanları tərəfindən zərərsizləşdirilir və ya məhv edilirdilər. İnternetin bəşəriyyətə təqdim etdiyi sərhədsiz imkanların insanlığın məhvinə yönəldilməsi ilə bağlı bir neçə faktı qeyd etmək vacibdir. Keçən əsrin 80-ci illərindən etibarən dünyanın müxtəlif bölgələrində yaradılan terror təşkilatlarına "xarici döyüşçülər" cəlb olunub və ya qoşulub. 1980-ci ilin statistikasına görə, "xarici döyüşçülərin" sayı 10 və 30 min arasında dəyişirdi. BMT-nin 2015-ci ildə nəşr etdiyi statistikaya görə, müxtəlif terror təşkilatlarına 100-dən çox ölkədən 40 minə yaxın "xarici döyüşçü" qoşulub. Maraqlısı ondan ibarətdir ki, onların çoxu internetə giriş imkanı yüksək olan ölkələrdən cəlb olunub. (Əlbəttə burada internet amili ilə yanaşı, təhsil, iqtisadiyyat və s. kimi amillər də mövcuddur. Onlar isə bu yazının mövzusu deyil.) Məlumat üçün qeyd edim ki, internetin verdiyi imkanlardan ən çox İŞİD terror təşkilatı "məharətlə" istifadə edib.

Bəs ekstremist və terrorçu qruplar sosial şəbəkə platformalarından təbliğat vasitəsi kimi necə istifadə edirlər? Bununla bağlı saysız empirik analizlər aparılıb və aşağıdakı nəticələrə gəlinib:

1. İlkin mərhələdə terror qrupu və ya terror qrupu üçün "döyüşçü" yığan istifadəçilər öz zərərli ideologiyalarını rəsmi veb səhifələr, "Feysbuk" səhifələri, şəxsi elektron poçtlar, "Yutub" kanalları və "Tvitter" kimi sosial media platformaları vasitəsilə mesaj, videoçarx, onlayn mühazirə və yazılı sənəd formatlarında bütün istifadəçilərə göndərirlər. Hədəf auditoriya (istifadəçilər) gələn məlumatları ixtiyari, yaxud qeyri-ixtiyari açıb oxuyur və ya izləyir. Bu zaman baxılan məlumatlar həmin istifadəçilərin profilləri vasitəsilə onların dostluq siyahısında olan digər şəbəkə istifadəçilərinin "divarında" görünməyə başlayır. Beləliklə, həmin istifadəçilər də zərərli məlumatlarla tanış olur.
2. Növbəti mərhələ "Qıf", yəni "ələkdən keçirmə" adlanır. Sosial şəbəkə platformalarının texniki göstəriciləri imkan verir ki, məlumatı bölüşən şəxs həmin məlumata bildirilən istənilən münasibəti görsün. Bu səbəbdən, "Qıf" üsulu ilə hədəf istifadəçi(lər) seçilir və onlarla virtual dialoq qurulur. Dialoq zamanı hədəf istifadəçiləri cəmiyyətdən uzaqlaşdırmaq üçün bir çox metoddan istifadə edilir. Kompüter arxasında oturan terror qrupunun üzvlərinin çoxu əqli, sosial və tibbi psixologiyanı mükəmməl bilir. Bu səbəbdən ünsiyyət qurduğu qurbanını asanlıqla cəmiyyətdən təcrid edir. "Qıf" üsulu ilə artıq onlar öz qurbanlarını növbəti mərhələyə hazırlayırlar.
3. Yoluxma mərhələsi. Bu mərhələdə "kristal toxum" təcrübəsindən istifadə olunur. Bu yanaşmada fincandakı su – qurbanlar - tədricən və tam donanadək soyudulur. Zamanla radikalizmi təbliğ edən və onlayn istifadə təlimatları əks olunan kirli məlumatlara məruz qaldıqca beyinləri yuyulmağa, yəni bədii təsvirdəki kimi ifadə etsək, qurbanlar donmağa başlayır. Bu metoddan daha çox "əl-Qaidə" terror təşkilatı istifadə edib.
4. Sonuncu mərhələ "Aktivləşdirmə" adlanır. Aparılan təbliğat nəticəsində radikallaşan istifadəçilər onlayn təlimatlar vasitəsilə partlayıcı vasitələrdən, silahlardan istifadəni öyrənirlər. Daha sonra qurbana hədəf məkanın seçilməsi prosesi izah edilir və müəyyən edilmiş yerdə partlayışı törədəcəyi vaxt deyilir. Artıq zombiləşmiş qurban həmin məkanı partlatmaq üçün hərəkətə keçir.

Bəs görəsən əsas təbliğat aləti kimi niyə məhz sosial şəbəkə seçilir? Hansı amillər belə sui-istifadə hallarının çoxalmasına gətirib çıxarır?

Bu suallara cavab tapmaq üçün nüfuzlu "beyin mərkəzləri" və alimlər tərəfindən araşdırmalar aparılır. Bu tədqiqatlardan biri də UNESCO tərəfindən hazırlanıb. Qurumun "Sosial media və gənclərin radikallaşması" başlıqlı araşdırmasında sosial şəbəkənin zorakı ekstremizmin təbliğinə imkan yaradan bir sıra xarakterik cəhətləri qeyd olunur:

* Gənclərin çoxluq təşkil etməsi. Gənc auditoriya cəlb etmək, hədəf seçmək baxımından daha rahat və interaktiv platforma hesab edilir;

* Fiziki məkanlarda asanlıqla yayıla bilməyən ekstremizmi, zorakılığı təbliğ edən və s. məzmunlu məlumatların asanlıqla yayılması üçün daha əlverişli olması;

* Sutkanın istənilən vaxtı harada olmağından asılı olmayaraq rahat şəkildə ünsiyyət qurmaq imkanı yaratması;

* İstifadəçilər üçün təkbətək dialoq qurma mühitini gücləndirməsi və nəticədə gənc istifadəçiləri yaşadıqları cəmiyyətdən asanlıqla təcrid etməsi. Sonda həmin gənclər özləri də fərqinə varmadan milli mədəniyyətlərinə yad olan, zərərli ideologiyaların təsiri altına düşür;

* İstənilən yer, məkan, şəxs və s. haqqında məlumatları əlçatan etməsi. Sosial şəbəkə vasitələri radikallaşan istifadəçilərə onlara lazım olan informasiyaları toplamaq və terror aktlarını planlaşdırmaqda "köməklik" göstərir.

İnternetin insan həyatında əhəmiyyəti artdıqca, sosial şəbəkələrin verdiyi imkanlardan sui-istifadə halları da artmağa başlayır. Bu səbəbdən beynəlxalq ictimaiyyət həyəcan təbili çalmağa başlayıb. Terrorla mübarizə sahəsində bir sıra beynəlxalq təşkilatlar tərəfindən qətnamələr qəbul edilir və üzv ölkələrin üzərinə öhdəliklər qoyulur.

Hazırda Avropa Birliyi ölkələri tərəfindən müəyyən addımlar atılmağa başlayıb. Terrorun maliyyələşdirilməsi, sosial şəbəkə vasitəsilə zərərli ideoloji təbliğatların aparılması və s. ilə mübarizə məqsədilə Avropa İttifaqı tərəfindən 2015-ci ilin noyabrında Avropa Terrorizmlə Mübarizə Mərkəzi yaradılıb. Artıq beynəlxalq ictimaiyyət başa düşür ki, sosial şəbəkənin yaratdığı yeni dalğanın qarşısını almaq mümkün deyil. İndi məqsəd bu dalğalardan müdafiə olunmağın yollarını axtarıb tapmaqdır.

Yuval N. Harari müəllifi olduğu "Sapiens: Bəşəriyyətin qısa tarixi" əsərində yazır ki, insan - onun təbirincə desək, Homo Sapiens - təkamülə uğradıqca yırtıcı heyvanlardan daha təhlükəli olmağa başlayır. Sapiensi yerüstü təhdid kimi təsvir edir. Sapiens Avstraliyaya köçdükdən sonra oradakı meqafaunanı yox etməyə başlayıb: "Avstraliyada yaşayan iri heyvanların qaçmağı öyrənmək üçün vaxtı yox idi. İnsanlar ilk baxışdan təhlükəli deyildi. Qıvraq və əzələli bədənləri, yaxud uzun iti dişləri yox idi. Buna görə də dünyada yaşamış ən böyük kisəli heyvan olan diprotodon bu cılız görkəmli meymunu ilk dəfə gördükdə ona gözucu baxıb yarpaq gövşəməyə qayıdardı. Bu heyvanlar özlərində insana qarşı qorxu hissi inkişaf etdirməliydi, amma bunu edə bilmədən qırılıb yox oldular". Bu baxımdan sosial şəbəkəni "müasir dövrün Sapinesi" adlandırmaq olar. Çünki sosial şəbəkələr, yuxarıda da qeyd etdiyim kimi, insanda virtual kimlik formalaşdırır. Yaradılmışların ən kamili olsaq da, informasiya və kommunikasiya dediyimiz bu məfhumla necə rəftar etmək lazım olduğunu sürətlə öyrənməli və adekvat addımlar atmalıyıq. Əks təqdirdə, BİZim də Avstraliyada yaşayan nəhəng canlılar kimi "qaçmağı öyrənməyə" vaxtımız olmayacaq.

# AYIN PANORAMI

Yanvarın 8-də Zaqatala şəhər 2 nömrəli tam orta məktəbdə "Mənəvi dəyərlərimiz həmrəyliyimizin zəmanətidir" mövzusunda tədbir keçirilib. Tədbirdə Zaqatala Rayon İcra Hakimiyyətinin (RİH) əməkdaşı Ramin Həsənov, Dini Qurumlarla İş üzrə Dövlət



Komitəsinin (DQİDK) Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən İlqar Vəliyev, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Zaqatala rayon şöbəsinin əməkdaşı Cavid Məmmədli, Zaqatala Rayon Təhsil Şöbəsinin (RTŞ) nümayəndəsi İlkin Məmmədov, Zaqatala rayon Uşaq və Ailələrə dəstək mərkəzinin direktoru Cövhərət İbrahimova və 2 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Ənvər Məhyəddinov, eləcə də müəllimlər və yuxarı sinif şagirdləri iştirak ediblər.

Çıxış edən natiqlər Azərbaycanda mövcud olan dövlət-din münasibətlərindən, multikulturalizm və tolerantlıqdan, o cümlədən xalqımızın min illərlə formalaşdırdığı mənəvi dəyərlərinin qorunub saxlanılmasının vacibliyindən danışıblar.

* * *



Yanvarın 15-də Zaqatala RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, DTX-nın Zaqatala rayon şöbəsi və RTŞ-nin birgə təşkilatçılığı ilə Əliabad qəsəbə tam orta məktəbində "Milli-mənəvi dəyərlərimizlə keçmişdən bu günə və gələcəyə gedən uğurlu yol" adlı tədbir keçirilib.

Tədbirdə RİH-in əməkdaşı Ramin Həsənov, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbənin müdiri vəzifəsini icra edən İlqar Vəliyev, DTX-nın rayon şöbəsinin əməkdaşı Cavad Əliyev, Əliabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Həsən Həsənov və orta məktəbin direktoru Şahid Madayev gənclərin mənəvi dəyərlərə sadiq qalmasının əhəmiyyətindən danışıblar. Həmçinin radikal və qeyri-ənənəvi dini cərəyanlar və onların törətdiyi fəsadlar barədə məlumat verən çıxışçılar qeyd ediblər ki, dini radikalizmə, xurafata və mövhumata qarşı ən tutarlı amil gənclərin bilikli olmasıdır.



* * *

Yanvarın 15-də DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Astara rayon Pensər kənd "Hacı Teymur Cümə" məscidində 20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, şöbənin əməkdaşları Turan Həsənzadə, Emin Həmidli, Pensər kənd "Hacı Teymur Cümə" məscidi dini icmasının sədri və İmamı Fariz Veysəlov çıxış edərək 20 Yanvar faciəsinin xalqımızın tarixində şərəf və ucalıq rəmzi olduğunu bildiriblər. Qeyd olunub ki, bu faciəyə ilk siyasi-hüquqi qiymət Ulu Öndər Heydər Əliyev tərəfindən verilib. Faciənin ertəsi gün Ümummilli Lider Heydər Əliyev Moskvada Azərbaycan nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirib.

* * *

Yanvarın 16-da Zərdab Rayon Gənclər və İdman İdarəsi və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə 20 Yanvar - Ümumxalq Hüzn Gününün 29-cu ildönümünə həsr olunmuş "XX əsin 20 Yanvar faciəsi" mövzusunda anım tədbiri keçirilib. Tədbirdə Zərdab Rayon Gənclər və İdman İdarəsinin rəisi İlkin Əliyev, İdarənin aparıcı məsləhətçisi Ələkbər Kərimov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşı Sədi Hüseynov, Dəkkəoba kənd tam orta məktəbinin direktor müavini Maisə Xəlilova çıxış ediblər. Qeyd edilib ki, Azərbaycan xalqı özünün azadlığı, müstəqilliyi uğrunda mübarizə aparıb və qəhrəmanlıq göstərib. Xalqımız bununla Vətənimizin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, şəhid vermək əzmini bütün dünyaya sübut edib.

* * *

Yanvarın 16-da DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonu Qaraxıdır kənd məscidində 20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə anım tədbiri keçirilib. Tədbirdə Göyçay RİH-in əməkdaşı Vüsal Zöhrabov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşı Rauf Nəsirov, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri Rəsul Kazımov və Cavid Səfərov, Qaraxıdır kənd məscidi dini icmasının sədri Şahin Yaqubov, məscidin imamı Gündüz Güliyev, din xadimləri iştirak ediblər. Çıxışlar zamanı 20 Yanvar gününün Azərbaycan xalqının yaddaşında qanlı bir səhifə kimi qalmaqla bərabər, qürur günü olduğu qeyd olunub. Qanlı Yanvar hadisələrinə yalnız Ümummilli Lider Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə gəldikdən sonra tam siyasi-hüquqi qiymət verildiyi, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra mühüm qərarlar alındığı vurğulanıb.

* * *

Yanvarın 22-də Zaqatala RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Rayon Gənclər və İdman İdarəsi və Zaqatala RTŞ-nin birgə təşkilatçılığı ilə Gözbarax kənd tam orta məktəbində "Milli-mənəvi və dini dəyərlərimizi qoruyaq" adlı tədbir keçirilib. Tədbirdə RİH-in əməkdaşı Ramin Həsənov, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən İlqar Vəliyev çıxış edib. Çıxışlarda mənəvi dəyərlərin hər bir insanın həyatında, vətəndaş və şəxsiyyət kimi formalaşmasında mühüm rol oynadığı, eyni zamanda keçirilən maarifləndirmə tədbirinin əhəmiyyətli olduğu vurğulanıb.

* * *

Yanvarın 24-də DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax Şəhər İcra Hakimiyyəti (ŞİH) və Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Dövlət-din münasibətlərinin tənzimlənməsində dini icmaların rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, YAP Yevlax şəhər təşkilatının Aparat rəhbəri Əli Quliyev, DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşı Vüsal Hüseynli, Yevlax şəhər



"Cümə" məscidinin imamı, Yevlax rayonu Ərəbbəsrə kənd məscidi dini icmasının sədri Nəsib Xəlilov və Yevlax rayonu Xaldan kənd "Cümə" məscidinin mütəvəllisi Elşən Osmanov çıxış edib. Natiqlər dövlət tərəfindən ölkəmizdə tarix boyu mövcud olmuş dinlərin nümayəndələrinin inanclarına qayğı göstərildiyini, ibadət evlərinin təmir, bərpa və inşa olunduğunu bildiriblər. Qeyd olunub ki, dövlət başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların təmiri, bərpası və yenidən qurulması mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir.

* * *

Yanvarın 29-da DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Rəhim Tağıyev adına Masallı rayon Tarixdiyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Şəhidlər unudulmur" mövzusunda tədbir keçirilib. Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Kamil Bağırov, muzeyin direktoru Əntiqə Tağıyeva, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin rayon şöbəsinin müdiri Nahid Rəhimov, rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Niftiyev, Şəhid Ailələri Qadın Cəmiyyətinin Masallı rayon şöbəsinin müdiri Ziba Əsgərli çıxış edib. Mövzunun əhəmiyyətindən və dövlətimizin şəhid ailələrinə diqqət və qayğısından danışan natiqlər qeyd ediblər ki, ölkəmizdə hər zaman şəhidlər böyük ehtiram hissi ilə anılıb.



# BÖLGƏLƏRDƏ ÖTƏN İLİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR EDİLMİŞ TƏDBİRLƏR KEÇİRİLİB

## Mingəçevirdə

Yanvarın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə 2018-ci il dini icmaların hesabatlarının dinlənilməsi ilə əlaqədar tədbir keçirilib.



Tədbirdə DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, Mingəçevir ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev, dini icma sədrləri, din xadimləri, dindarlar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev dövlət-din münasibətlərinin təməlinin Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu və hal-hazırda yüksələn xətt üzrə inkişaf etdiyini, dini icmalara dövlət tərəfindən maddi dəstəyin göstərildiyini və keçirilən maarifləndirici tədbirlərin mahiyyətini qeyd edib. Həmçinin Azərbaycanın yenidən müstəqillik qazandıqdan sonra bütün sahələrdə olduğu kimi dövlətin və ölkə rəhbərliyinin din sahəsinə göstərdiyi diqqət və qayğısından bəhs edib, ölkəmizdə multikulturalizm və tolerantlıq ənənələrinin yüksək inkişaf etdiyini vurğulayıb.

Daha sonra çıxış edən Mingəçevir ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev Azərbaycanda dini icmaların maddi texniki təminatının yaxşılaşdırılması, məscidlərin təmir, bərpa və inşasının dövlətin İslam dininə verdiyi böyük dəyərin bariz nümunəsi olduğunu deyib.

Mingəçevir şəhəri "Zəhra" məscidi dini icmasının sədri Samit Lətifov, "Cümə" məscidi dini icmasının sədri Yusif Yusifov dövlətin İslam dininə və din xadimlərinə verdiyi dəyərdən bəhs edərək, bu müstəvidə keçirilən maarifləndirici tədbirlərin vacibliyini vurğulayıblar.

## Ağdaşda

Yanvarın 30-da DQİDK Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə keçirilən analoji tədbirdə DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Şirvan bölgəsi üzrə qazısı, Ağdaş şəhəri "Hacı İsmayıl" məscidinin imamı Əli Məmmədov, Ağdaş RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Səbuhi Musayev, Ağdaş rayon Ağsaqqallar şurasının sədri Rafiq Nəbiyev, eləcə də dini icma sədrləri, din xadimləri, dindarlar iştirak ediblər.

DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin müdiri N.Əfəndiyev demokratik inkişaf yolunu seçmiş multikultural və tolerantlığı ilə tanınan Azərbaycan üçün dini etiqad azadlığının ölkənin daxili siyasətinin prioritet istiqamətlərindən biri olduğunu, Ümummilli Liderimiz Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkəmizdə



dövlət-din münasibətlərinin beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimləndiyini vurğulayıb. Bütün dinlərin və dini qurumların qanun qarşısında bərabər olduğunu bildirən natiq heç bir din və dini qurum barəsində digərlərinə görə hər hansı üstünlüyün və ya məhdudiyyətin müəyyən edilmədiyini diqqətə çatdırıb.

QMİ-nin Şirvan bölgəsi üzrə qazısı Ə.Məmmədov mövzu ilə bağlı çıxış edərək, dövlətin bütün dinlərə hörmət və qayğı ilə yanaşdığını qeyd edib, bunu Azərbaycanın tolerant ölkə olması ilə əlqələndirib. Cəmiyyət arasında düzgün dini maarifləndirmənin aparılmasında, dinin olduğu kimi topluma çatdırılmasında din xadimlərinin üzərinə böyük vəzifə düşdüyünü bildirib.

Ağdaş RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı S.Musayev dövlətin ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının ayrılmaz hissəsi kimi yanaşdığını bildirib. O, irqi, milli, dini və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmədiyini vurğulayıb.

## Lənkəranda

Yanvarın 30-da DQİDK Lənkəran bölgəsi üzrə şöbəsi, QMİ və Lənkəran ŞİH-in birgə təşkilatçılığı ilə 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Asif İmanlı, QMİ-nin bölgə qazısı Qəni Axundzadə, dini icma sədrləri və din xadimləri iştirak ediblər.

QMİ-nin qazısı Q.Axundzadə çıxışında dövlətin dinə qayğısından danışaraq ölkəmizdə müxtəlif dinlərin, xalqların və məzhəblərin nümayəndələrinin sülh, həmrəylik və qarşılıqlı hörmət şəraitində yaşadığını qeyd edib.

DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Q.Məmmədov çıxışında dövlət-din münasibətləri, İslam həmrəyliyinin mükəmməl Azərbaycan modeli haqqında fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Natiq xalqımızın çoxəsrlik milli-mənəvi və dini dəyərlərinin qorunması, inkişafı və gələcək nəsillərə çatdırılmasında dini icma sədrləri və din xadimlərinin üzərinə mühüm vəzifələr düşdüyünü vurğulayıb.

Lənkəran ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini



qurumlarla işin təşkilatçısı A.İmanlı çıxışında Azərbaycanın öz multikultural, tolerant yaşam tərzi və zəngin milli-mənəvi dəyərləri ilə dünyaya nümunə olduğunu qeyd edib.

# XİN: AZƏRBAYCANA QARŞI ƏSASSIZ İDDİALARLA ÇIXIŞ EDƏN BEYNƏLXALQ TƏŞKİLATLAR ERMƏNİSTANDA ÖLÜM HALI İLƏ BAĞLI SUSURLAR



Ermənistanda həbs olunan siyasi partiya rəhbəri Mher Yegiazaryan 52 günlük aclıq aksiyasından sonra vəfat edib. Bir qədər öncə Azərbaycanda Mehman Hüseynovun aclıq aksiyası ilə əlaqədar əsassız şəkildə səs-küy qaldıran insan hüquqları carçıları, indiki halda nədənsə biganə qalırlar. Bu barədə indiyədək nə müvafiq Avropa institutları, nə də digər beynəlxalq insan hüquqları müdafiəçiləri tərəfindən hər hansı bəyanatlar verilməyib, təcili dinləmələr keçirilməyib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri bununla bağlı AZƏRTAC-a bildirib:

- Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən həbs edilən və Yerevanın "Nubaraşen" cinayət cəzaçəkmə müəssisəsində saxlanılan məsul jurnalist, "Erməni qartallar – vahid Ermənistan" siyasi partiyasının sədr müavini Mher Yegiazaryan bir ay yarım ərzində keçirdiyi aclıq aksiyasından sonra yanvarın 26-da vəfat edib. Bir müddət öncə Mehman Hüseynov aclıq aksiyasını dayandırdığı halda əsassız iddialarla çıxış edən Avropa Parlamenti, ATƏT, Avropa Şurasının insan hüquqları üzrə məsul rəsmiləri və bəzi dövlətlər Ermənistanda Yegiazaryanın aclıq akasiyası nəticəsində ölümü ilə bağlı susurlar. Ağlasığmaz bir haldır ki, Avropa ölkələrinin diplomatları M.Hüseynovla görüşüb onun səhhətinin normal olduğunu şəxsən gördükləri və Avropa Komissarının onun aclıq aksiyasını dayandırdığını qeyd etdiyi halda Avropa Parlamenti bu məsələ ilə bağlı qətnamə qəbul etdi. "Washington Post" qəzetində bu məsələ ilə bağlı qısa müddət ərzində iki məqalə dərc edildi, maraqlıdır bu qəzet Mher Yegiazaryanın ölümü ilə bağlı məqalə dərc edəcəkmi?

Bütün bunlar, əlbəttə ki, Azərbaycana qarşı həyata keçirilən ikili standartlardan xəbər verir. Bu hal bir daha ölkəmizə qarşı saxta təbliğata və məlumatlara əsaslanan kampaniyanın həyata keçirildiyini göstərir. Aydındır ki, bu kampaniyanın əsl məqsədi Azərbaycana qarşı siyasi təzyiq göstərmək cəhdi olub. İnsan hüquqları universaldır və bölünməz xarakter daşıyır və bu məsələni siyasiləşdirərək onu siyasi təzyiq alətinə çevirmək istəyənlər, əslində, elə insan hüquqları dəyərinə xələl gətirmiş olurlar.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestində (Dini qurumların dövlət reyestri) edilmiş dəyişikliklər

**Goranboy şəhər məscidi dini icması**
Qeydiyyat tarixi: 25 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 139

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Gəray Calal oğlu, Xəlilov İmanverdi Hüseynqulu oğlu, Sərdərli Elmira Qəmbər qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əliyev Bəxtiyar Hüseynqulu oğlu, Qasımov Camal Arif oğlu, Kərimli Zəka İlqar oğlu, Məmmədov Samir Rəfail oğlu, Aslanov Cavid İsmayıl oğlu, Əhmədov Tural Elşən oğlu, Əliyev Cavid Semur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

*Dəyişikliklərin qeydiyyat tarixi: 26 dekabr 2018-ci il*

**Yardımlı rayonu Çayüzü kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 395

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəbiyev Zakir Zairəli oğlu, Kazımov Rzali Səfərqulu oğlu, Kazımov Əlibaba Ağarza oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Orucov Natiq Əli oğlu, Orucov Sadiq Əli oğlu, Nəciyev Səhrad Vəkil oğlu, Eyvazov Bakir Əhməd oğlu, Rzayev Adil Vəli oğlu,Talıbov Elşən Mirzəxan oğlu, Kazımov Bəhlul Alibaba oğlu, Eyvazov Fitat Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

*Dəyişikliklərin qeydiyyat tarixi: 04 yanvar 2019-cu il*

**Göyçay rayonu Mallı-Şıxlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A – 709

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bəkirov Cəlil Əbil oğlu, Həmidov Yaqub Həbib oğlu, Qasımov Qurban Şaban oğlu, Rüstəmov Fərman Süleyman oğlu, Bağırov Fizuli İsa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Həmidov Akif Yaqub oğlu, İsmayılov Nicat Tofiq oğlu, Babayev Ağabala Soltan oğlu, Bəkirov Cəlal Cəlil oğlu, İsmayılov Asif Hacı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

*Dəyişikliklərin qeydiyyat tarixi: 04 yanvar 2019-cu il*

**Goranboy rayonu Dəliməmmədli şəhəri "Əkbər Cümə" məscidi dini icması**
Qeydiyyat tarixi: 08 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 151

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mustafayev Faxrəddin Əli oğlu, Diniyev Nizami Babacan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məhərrəmov Aftandil Bəşir oğlu, Cavadov İlkin Aydın oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

*Dəyişikliklərin qeydiyyat tarixi: 04 yanvar 2019-cu il*

**"Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumu**
Qeydiyyat tarixi: 12 oktyabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 02

Dini qurumun qərarı və digər sənədlərə əsasən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun filiallarının adları :

- Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Bakı şəhəri "Jen-Mironosits" Kafedral Soboru Kilsəsi filialının adı dəyişdirilərək "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Jen-Mironosits" Kafedral Soboru Kilsəsi filialı kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir;
- Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Bakı şəhəri "Rojdestva Boqoroditsı" Kilsəsi filialının adı dəyişdirilərək "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Rojdestva Boqoroditsı" Soboru Kilsəsi filialı kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir;
- Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Xaçmaz şəhəri "Svyato -Nikolskiy" Kilsəsi filialının adı dəyişdirilərək "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Xaçmaz şəhəri "Svyato -Nikolskiy" Kilsəsi filialı kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir;
- Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Gəncə şəhəri "Aleksandro-Nevskiy" Kilsəsi filialının adı dəyişdirilərək "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Gəncə şəhəri "Aleksandro-Nevskiy" Kilsəsi filialı kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir;
- Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Sumqayıt şəhəri "Serafim Sarovskiy" Kilsəsi filialının adı dəyişdirilərək "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Sumqayıt şəhəri "Serafim Sarovskiy" Kilsəsi filialı kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir;
- Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Bakı şəhəri "Arxangela Mixaila" Kilsəsi filialının adı dəyişdirilərək "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Arxangela Mixaila" Kilsəsi filialı kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Nikoronov Aleksey Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Bakı şəhəri "Rojdestva Boqoroditsı" Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Dolinin Dmitriy Yevgenyeviç "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Rojdestva Boqoroditsı" Soboru Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Bideyev Serafim "Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Bakı şəhəri "Arxangela Mixaila" Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestridən çıxarılmış və Əfəndiyev Elnur Ənvər oğlu "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Bakı şəhəri "Arxangela Mixaila" Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Tarasenko Taisiya Semyonovna Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Xaçmaz şəhəri "Svyato -Nikolskiy" Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestridən çıxarılmış və Budaqov İlqar Əlädin oğlu Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Xaçmaz şəhəri "Svyato -Nikolskiy" Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Bezotonosnıy Andrey Alekseyeviç "Rus Pravoslav Kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası Pravoslav dini icmasının Gəncə şəhəri "Aleksandro-Nevskiy" Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestridən çıxarılmış və Sotnikov Denis Aleksandroviç "Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası" dini qurumunun Gəncə şəhəri "Aleksandro-Nevskiy" Kilsəsi filialının rəhbəri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

*Dəyişikliklərin qeydiyyat tarixi: 04 yanvar 2019-cu il*

## ELAN

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahının (146 №-li, 11.12.2002-ci il tarixli şəhadətnamə) şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahı (146 №-li, 11.12.2002-ci il tarixli şəhadətnamə) təsisçilərinin 28 yanvar 2019-cu il tarixli ümumi yığıncağının 01№-li protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış Bakı şəhəri Əzizbəyov rayonu Buzovna qəsəbəsi "Məşədi Qərib" məscidi dini icmasının 100109A2-23 nömrəli, 24.11.2009-cu il tarixli şəhadətnaməsi və icmaya məxsus möhür, ştamp itirildiyinə görə etibarsız sayılır.



## QEYRİ-QANUNİ DİNİ TƏBLİĞATLA MƏŞĞUL OLAN ƏCNƏBİ VƏTƏNDAŞLAR AZƏRBAYCANDAN DEPORTASİYA EDİLİBLƏR

Yanvarın 10-da Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş birgə tədbir nəticəsində Bakı şəhəri Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsində yerləşən yaşayış evində bir qrup əcnəbi vətəndaşın da iştirak etdiyi qeyri-qanuni dini fəaliyyət aşkarlanıb.

Qeydolunan ünvanda humanitar yardım adı altında missionerlik fəaliyyəti, o cümlədən qeyri-qanuni dini təbliğatla məşğul olan əcnəbi vətəndaşlar barəsində müəyyən edilmiş tələblərə uyğun olaraq inzibati qaydada protokol tərtib edilərək məhkəməyə göndərilib. Məhkəmənin qərarına əsasən həmin əcnəbi vətəndaşlar cərimə olunub və ölkəmizdən deportasiya edilibər.

CƏMİYYƏT və DİN
№ 01 (330) / Yanvar 2019-cu il

# MİSİRİN YENİ PAYTAXTINA KÖÇ 2020-Cİ İLDƏ BAŞLAYACAQ



Misir hökuməti 51 min dövlət məmurunun Qahirədən yeni inşa edilən inzibati paytaxta köçürülməsi barədə planlarını açıqlayıb.

Qahirədən 49 kilometr şərqdə yerləşən yeni paytaxtın salınmasına Misir Prezidenti Əbdül Fəttah əs-Sisinin təşəbbüsü ilə 2017-ci ildə başlanıb. Ölkə hökumətinin bu genişmiqyaslı layihəni həyata keçirməkdə əsas məqsədi 19 milyondan çox əhalisi olan Qahirəni boşaltmaqdır. Yeni paytaxta parlamentin üzvləri, 31 nazirliyin və digər dövlət qurumlarının əməkdaşlarının köçürülməsinə 2020-ci ildə başlanacaq. Bu proses iki mərhələdə həyata keçiriləcək və artıq hansı qurumun nə vaxt köçürüləcəyi barədə növbə tərtib olunub.

Misirin yeni paytaxtının tikintisində "ağıllı" texnologiyalardan istifadə edilir. Oraya köçəcək məmurlar öncə informasiya texnologiyaları, kompüterdən istifadə bacarığı və ingilis dilindən imtahan verəcəklər, çünki hökumət qurumlarının işində kağızdan istifadə istisna olunur.

Xatırladaq ki, Misirin təkcə inzibati deyil, həm də iqtisadi paytaxtı olacaq bu şəhərdə 5 milyona qədər insanın yaşayacağı, əsas dövlət qurumlarının və xarici səfirliklərin yerləşdirilməsi nəzərdə tutulur. Şəhərin ərazisində hazırda beynəlxalq hava limanı da inşa edilir.

# İTALİYADA BİR AVROYA EVLƏR SATILIR



İtaliyanın Sambuka di Siciliya bələdiyyəsinin rəhbərliyi qeyri-adi aksiyaya start verib. Onlar evləri rəmzi olaraq bir avroya satırlar.

Təşəbbüsün məqsədi əhali çatışmazlığından əziyyət çəkən şəhərə yeni sakinlər cəlb etmək və onun görünüşünü yaxşılaşdırmaqdır. Satışa onlarla tarixi obyekt çıxarılıb. Eyni zamanda, alıcılar üç il ərzində evləri təmir etməli, bu işlərə azı 15 min avro xərcləməlidirlər. Bundan əlavə, onlar şəhər xəzinəsinə 5 min avro məbləğində depozit qoymalıdırlar. Bu pul təmir bitəndən sonra geri qaytarılacaq.

Sambukanın merinin müavini Cüzeppe Kaçiopponun sözlərinə görə, proqrama daxil olan, təxminən, on obyekt artıq satılıb, evlərin alınması üçün müraciətlər, əsasən, İsveçrə, Fransa və İspaniyadan gəlir.

Ötən il analoji aksiya Sardiniya adasındakı Ollolay şəhərində keçirilib.

## Yadigar söz

*Oskar Uayld*
*irland yazıçısı*

**Hər bir gözəllikdə pislik axtaranlar korlanmış insanlardır, bu, günahdır. Hər bir gözəllikdə onun yüksək mənasını görənlər mədəni insanlardır. Əsl insan isə gözəllikdə elə gözəlliyi görməyi bacaranlardır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Fevral - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 2 | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 3 | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 4 | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 5 | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 6 | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 7 | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 8 | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 9 | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |
| 27 | 05:58 | 07:18 | 12:54 | 16:46 | 18:43 | 19:44 |
| 28 | 05:57 | 07:17 | 12:53 | 16:47 | 18:44 | 19:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10,** Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

*• Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# GÜNƏŞ SİSTEMİNDƏ YENİ SƏMA CİSMİ KƏŞF EDİLİB



Günəş Sistemi ilə bağlı Kembric Universiteti və Beyrutdakı Amerika Universitetinin tədqiqatçıları yeni hipotez irəli sürüblər.

Alimlərin fikrinə əsasən, Günəş sisteminin dərinliyində buzlu səma cisimlərindən ibarət böyük disk var.

Onların fikrinə görə, Günəş sistemini əhatə edən Koyper qurşağındakı bəzi obyektlərin çıxıntılı orbitləri ilə bunu izah etmək mümkündür. Bir müddət əvvəl isə alimlər bu cisimlərin hərəkət trayektoriyasındakı anomaliyanı sirli doqquzuncu planetlə izah edirdilər.

Plutondan da uzaqda yerləşən doqquzuncu planet barədə hipotez ilk dəfə 2016-cı ildə Kaliforniya Texnologiya İnstitutunun alimləri irəli sürüblər.

Astronomların fikrincə, qaz nəhənginin kütləvi təsiri Koyper qurşağındakı çıxıntılı orbitləri olan səma cisimləri ilə izah edilə bilər. Koyper qurşağı yüz minlərlə buz cismindən ibarətdir və onların bəzilərinin elliptik çıxıntılı orbitləri var. Bu günə qədər 30-a yaxın belə anomal səma cismi kəşf edilib. Doqquzuncu planet hipotezi isə bu günə qədər təsdiqlənməyib.

Alimlər isə qeyd ediblər ki, çıxıntılı orbitlərə təsir edən planet yox, disk şəklində çoxsaylı buz cismi ola bilər.

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51; Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40; Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894